Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

26 APREL 2019-cu il
№ 75 (3973)
Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

# FRANSADA «SARI JİLETLİLƏR» ÜSYANI VƏ AZƏRBAYCAN - FRANSIZ DEPUTATIN MARAQLI MÜQAYİSƏSİ...

səh. 8

İcra başçılarının rayona kənardan investisiya cəlbi - Prezidentin tapşırığına kim necə əməl edir...

səh. 3

Qarabağ prosesinə yeni diaqnoz - Paşinyan geri çəkilərək, danışıqları dalana dirəmək istəyir...

səh. 9

Koloradonun qondarma "DQR"in "müstəqilliyi"ni tanıması həqiqətdirsə - Azərbaycanın ABŞ-a ən sərt etirazlarına əsaslar var

səh. 4

Rusiya və ABŞ-ın separatçı bölgələrdə açıq qarşıdurma dövrü başlayır - dinc Qarabağ prosesi alt-üst ola bilər...

səh. 5

ABŞ səfiri Ramil Usubovla görüşdə əcnəbilər üçün yaradılmış təhlükəsiz şəraitdən məmnunluğunu ifadə etdi

səh. 2

Paytaxt və respublika yollarında yük maşınları təhlükə və antisanitariya mənbələrinə çevrilir...

səh. 11

Neftlə çirklənmiş əraziləri tam təmizləmək niyə mümkün olmur...

səh. 15



səh. 11

## Qızılağac qoruğunda fəlakət - Coğrafiya İnstitutu belə deyir, Ekologiya Nazirliyi «yoxlanılmalıdır» deyir...



Anarın Xalidə Bayramovanı müdafiəsi bir yana - kitablardan qisas almaq nə deməkdir...

səh. 7

400-dən çox qanunsuz çoxmərtəbəli yaşayış binasının hələlik 14-ü sənədləşib - Prezidentin sərəncamı niyə zəif icra olunur...

səh. 10



Masallıda supermarketə qurban verilmiş Vətən Müharibəsi abidəsinə görə kənd camaatının etirazı yenidən fəallaşır...

səh. 12

səh. 8

Vaşinqton analitiklərinin şok qənaəti - Ermənistan məhv olacaq...



səh. 4

Bakının gur yerlərində səyyar satış bərpa olunur, ayrıca geyimlər - qəzet satışı canlanacaqmı...



səh. 6

Məşhur erməni canisi Qaregin Njdenin cinayət tarixçəsində "ermənilərin də qan izləri" tapıldı...



səh. 3

Çin kapitalının Azərbaycana yeni axın mərhələsi başlayır...



səh. 7

Sosial şəbəkələrdə hay-küylə paylaşılan "xarabazar fotoların" İçərişəhərə aidiyyəti qəti inkar olunur...



# Prezident İlham Əliyev Pekində "China National Electric Engineering" şirkətinin prezidenti ilə görüşdü...

**Prezident İlham Əliyev aprelin 25-də Pekində "China National Electric Engineering" şirkətinin prezidenti Cao Huy ilə görüşüb.**

"China National Electric Engineering" şirkətinin prezidenti Cao Huy aprelin 24-də Pekində Sumqayıt Kimya Sənaye Parkında şin zavodunun tikintisi ilə əlaqədar niyyət protokolunun imzalandığını bildirib. Bundan əvvəl də ölkəmizdə müxtəlif sahələrə dair bir neçə layihəni həyata keçirdiklərini deyən Cao Huy Azərbaycandakı investisiya mühitindən, xarici sərmayədarlar üçün yaradılan şəraitdən razı qaldıqlarını vurğulayıb və buna görə dövlət başçısına təşəkkür edib.

Prezident İlham Əliyev qeyri-neft sektorunun inkişafının ölkəmizdə prioritet sahə olduğunu deyərək, müxtəlif sahələrdə əməkdaşlığa dair 10 sənədin imzalandığını, bununla da Azərbaycanın sənaye sahəsinə çoxlu sərmayənin yatırılacağını bildirib. Sumqayıt Kimya Sənaye Parkında xüsusi vergi rejimlərinin tətbiq edildiyini, bunun isə xarici sərmayədarlar üçün daha cəlbedici olduğunu deyən dövlət başçısı "China National Electric Engineering" şirkətinin növbəti rezident kimi Kimya Sənaye Parkında öz müəssisəsini yaratmasını yüksək qiymətləndirib, bu müəssisənin Azərbaycanın ixrac imkanlarını artıracağını bildirib. Dövlət başçısı ölkəmizdə yaxşı sərmayə imkanlarının olduğunu, Dünya Bankının "Doing Business" hesabatına görə Azərbaycanın 32 pillə irəliləyərək dünyada ən çox islahat həyata keçirən 10 ölkə sırasında olduğunu vurğulayıb. Bununla da Azərbaycanın böyük tərəqqiyə nail olduğunu deyən Prezident İlham Əliyev ölkəmizdə xarici sərmayələrin yüksək səviyyədə qorunduğunu, bunun xarici investorlar üçün ölkəmizin cəlbediciliyini artırdığını vurğulayıb.

Azərbaycan Prezidenti aprelin 25-də Pekində "China Poly Group" Korporasiyasının sədri Su Nianşa ilə də görüşüb.



Korporasiya sədri Dünya İqtisadi Forumu çərçivəsində Davosda Azərbaycan Prezidenti ilə görüşünü xatırlayaraq bu görüşün onda böyük təəssürat yaratdığını bildirib. O, rəhbərlik etdiyi şirkətin Azərbaycanla bir sıra sahələrdə əməkdaşlıq qurduğunu və ölkəmizdə fəaliyyətlərini genişləndirməkdə maraqlı olduqlarını deyib.

Azərbaycanda sənaye müəssisələrinin yaradılması, kənd təsərrüfatı, İKT, turizm və digər sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu qeyd edən Prezident İlham Əliyev son illərdə turizm sektorunda böyük inkişafın və artımın müşahidə edildiyini deyərək, viza rejiminin sadələşdirilməsi və elektron vizanın tətbiqi sayəsində Çindən də ölkəmizə turist axınının sürətləndiyini bildirib.

Söhbət zamanı əməkdaşlığın müxtəlif sahələri ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

## Azərbaycan XİN ABŞ-ın Kolorado Senatının "genosidi" tanıma qərarına qarşı tədbirlərə start verdi...

**Xarici İşlər Nazirliyi ABŞ-ın Kolorado ştatının senatı tərəfindən qondarma erməni soyqırımı ilə bağlı qətnamənin qəbul edilməsi və bu qətnamədə ölkəmizin işğal edilmiş torpaqlarında yaradılmış qondarma qurumun tanınması ilə bağlı yayılan məlumatla bağlı açıqlama verib.**



Nazirliyin Mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva baki-xeber.com-a açıqlamasında bildirib ki, 24 aprel tarixində Kolorado ştatının 35 nəfərlik senatı qondarma "erməni soyqırımı" ilə bağlı qətnamə qəbul edib. Bu qətnamədə Ermənistan və qondarma "artsaxın" Türkiyə və Azərbaycan tərəfindən "blokadasına" istinad edilir və guya ki, Naxçıvan Muxtar Respublikasında erməni "xristian irsinin" mədəni soyqırmının törədildiyi iddia edilir:

"Qeyd etmək istərdik ki, bəzi media nümayəndələri qətnamədə işğal altındakı torpaqlarımızda yaradılmış qondarma quruma istinadən guya həmin qurumun tanınması kimi təqdim etməyə cəhd edib. Vurğulamaq istərdik ki, sözügedən qətnamənin mətni onu ifadə etmir və hər hansı bir qurumun "dövlət" kimi tanınması, ümumiyyətlə ştat qanunverici orqanın səlahiyyətləri xaricindədir".

L.Abdullayeva bildirib ki, praktiki və hüquqi əhəmiyyəti olmayan belə simvolik qətnamələr ştatlar üçün də hər hansı bir nəticə doğurmadığı üçün qısa prosedurla qəbulu mümkün olur.

Nazirlik rəsmisinin sözlərinə görə, ölkəmizin ABŞ-dakı səfirliyi tərəfindən Kolorado Senatının rəhbərliyi və hər bir üzvünə ölkəmizlə bağlı yol verilmiş ciddi təhriflər və yanlışlıqların aradan qaldırılmasına çağıran məktublar göndərilib və müvafiq görüşlərin keçirilməsi nəzərdə tutulub.

## ABŞ səfiri Ramil Usubovla görüşdə əcnəbilər üçün yaradılmış təhlükəsiz şəraitdən məmnunluğunu ifadə etdi

**Daxili işlər naziri, general-polkovnik Ramil Usubov aprelin 25-də ABŞ-ın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqeri qəbul edib.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, müstəqilliyin əldə edilməsindən sonra ölkəmizin ABŞ-la münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini diqqətə çatdıran cənab Ramil Usubov qarşılıqlı hörmət və etimada əsaslanan, hər iki dövlətin milli maraqlarına cavab verən əlaqələrin bu gün də bütün sahələrdə yüksələn xətt üzrə inkişaf etdiyini vurğulayıb.



Daxili işlər orqanlarında həyata keçirilən genişmiqyaslı hüquqi-demokratik islahatlar barədə diplomata məlumat verən nazir əməliyyat-xidməti fəaliyyətin beynəlxalq norma və standartlara uyğun təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının önə çəkildiyi yeni normativ-hüquqi bazanın yaradılması istiqamətində görülən işlər barədə danışıb, cinayətlərin qarşısının alınmasında ən müasir informasiya texnologiyalarının imkanlarından da geniş istifadə olunduğunu diqqətə çatdırıb.

O da qeyd olunub ki, Azərbaycanda kriminogen durumun nəzarət altına alınması, ölkə vətəndaşlarının, əcnəbilərin, o cümlədən, xarici investorların təhlükəsizliyinin təmin olunması və onlar üçün əlverişli şəraitin yaradılması məqsədilə önəmli addımlar atılıb.

Ölkələrimiz arasında münasibətlərin mühüm istiqamətlərindən biri kimi qlobal təhlükəsizlik və terrorçuluqla mübarizə məsələsinə toxunan nazir xüsusilə 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra ABŞ-la strateji tərəfdaşlıq əlaqələrinin daha da möhkəmləndiyini nəzərə çatdırıb, antiterror koalisiyasında yer alan dövlətimizin bu təhlükəli bəlaya qarşı birgə mübarizəyə öz töhfəsini verdiyini qeyd edib.

Bildirilib ki, transmilli mütəşəkkil cinayətkarlığın təhlükəli növlərindən olan insan alverinə qarşı mübarizənin kompleks və sistemli şəkildə aparılması üçün ölkəmizdə 2004-cü ildən başlayaraq 3 Milli Fəaliyyət Planı icra olunub, geniş qanunvericilik bazası formalaşdırılıb. Bunun davamı kimi, cari ildə yeni Milli Fəaliyyət Planının layihəsi hazırlanaraq hökumətə təqdim edilib.

Səfir Örl Litzenberqer səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirərək Azərbaycanda olduğu qısa müddət ərzində istər ölkə vətəndaşları, istərsə də əcnəbilər üçün yaradılmış təhlükəsiz şəraitdən, əminamanlıqdan məmnunluğunu ifadə edib.

O, cinayətkarlıqla mübarizənin bir sıra istiqamətləri, o cümlədən terrorçuluğa, insan alverinə qarşı mübarizə sahəsində Azərbaycanda həyata keçirilən tədbirlərin Birləşmiş Ştatlar tərəfindən müsbət qiymətləndirildiyini, diplomatik fəaliyyəti dövründə dövlətlərimiz, həmçinin, ABŞ səfirliyi ilə Daxili İşlər Nazirliyi arasında əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Səmimilik və işgüzarlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

## Türkiyə səfiri Trampın 1915-ci il hadisələri ilə bağlı bəyanatını birtərəfli adlandırdı



**ABŞ Prezidenti Donald Trampın 1915-ci il hadisələri ilə bağlı bəyanatı birtərəflidir və bu bəyanatda türk və müsəlman xalqının ağrı-acısı qeyd olunmayıb.**

"Trend"in məlumatına görə, bunu Türkiyənin Vaşinqtondakı səfiri Sərdar Kılıç deyib.

S.Kılıç bildirib ki, erməni quldur dəstələrinin həmin vaxt Osmanlı dövlətinin dinc müsəlman əhalisini qətlə yetirməsi barədə çoxsaylı faktlar var.

Diplomat vurğulayıb ki, buna baxmayaraq, Ankara dəfələrlə İrəvanı 1915-ci il hadisələrini araşdırmaq üçün birgə komissiya yaratmağa çağırıb, lakin Ermənistan hələ də buna reaksiya verməyib.

Qeyd edək ki, bu günlərdə Vaşinqtonda yaşayan Türkiyə və Azərbaycan vətəndaşları 1915-ci il hadisələri ilə bağlı etiraz aksiyası keçiriblər.

**Aprelin 24-də ABŞ Prezidenti Donald Tramp Osmanlı İmperiyasında 1915-ci ildə qeydə alınan hadisələrlə bağlı bəyanatında yenə də "soyqırımı" sözündən istifadə etməyib.**

**O, ənənəvi müraciətində "mets yeqern" ("böyük müsibət") ifadəsi ilə kifayətlənib.**

# İcra başçılarının rayona kənardan investisiya cəlbi - Prezidentin tapşırığına kim necə əməl edir...

**"Yerli icra orqanları çalışmalıdırlar ki, investisiyaları cəlb etsinlər. Çünki iqtisadi artım olmasa, onda bizim maliyyə imkanlarımız da olmayacaq". Bunu Prezident İlham Əliyev Bakının Xəzər rayonunda Mərdəkan-Qala avtomobil yolunun açılışında iştirak edərkən sakinlərlə görüşündə deyib.**

## *"Şirvan şəhərində bu sahədə vəziyyət qənaətbəxş deyil"*

Ölkə başçısının sözlərinə görə, bürokratik əngəllər aradan qaldırılmalıdır, biznes qurmaq istəyənin qarşısında süni əngəllər qoyulmamalıdır: "Əgər əvvəlki dövrü götürsək görərik ki, pensiyalar, maaşlar təqribən 10 dəfəyə yaxın artıb. Ancaq bu gün bu bizi qane edirmi? Yox. Nə etməliyik? Daha da fəal işləməliyik, iqtisadiyyat daha da sürətlə artmalıdır, sərmayə yatırılmalıdır, bürokratik əngəllər aradan qaldırılmalıdır, biznes qurmaq istəyənin qarşısında süni əngəllər qoyulmamalıdır. Yerli icra orqanları çalışmalıdırlar ki, investisiyaları cəlb etsinlər. Çünki iqtisadi artım olmasa, onda bizim maliyyə imkanlarımız da olmayacaq".

Onu da qeyd edək ki, ölkə Prezidenti 2018-ci ilin yanvarında yerli icra qurumları qarşısında bu vəzifəni qoyub. Belə ki, regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda bu barədə danışan Prezident İlham Əliyev qeyd edib ki, yerli icra orqanları rayonlara sərmayə qoymaq üçün iş adamlarını cəlb etməlidirlər: "Yerli icra orqanları bu işlərdə daha fəal olmalıdırlar. Onlar iş adamlarını cəlb etməlidirlər ki, gəlib sərmayə qoysunlar".

Yerli icra qurumları bu sahədə aktiv fəaliyyət göstərsə, o zaman bölgələrdə məşğulluğun təmin edilməsi və yeni iş yerlərinin açılması üçün əlavə imkanlar yaranacaq. Bu da bölgələrin inkişafına təkan verəcək.

Maraqlıdır, bölgələrdə bu sahədə vəziyyət necədir? İcra qurumları bu istiqamətdə necə fəaliyyət göstərirlər?

**Sözügedən məsələ ilə bağlı Şirvan şəhərində fəaliyyət göstərən "Kimsəsiz və Aztəminatlı Ailələrin Uşaqlarına Sosial-Mənəvi Dəstək" İctimai Birliyinin rəhbəri Təranə Əhmədin fikirlərini öyrəndik.** Onun sözlərinə görə, Prezident İlham Əliyev insanların sosial vəziyyətinin yaxşılaşdırılması üçün çox böyük işlər görür: "Ancaq gərək icra başçıları da bununla bağlı daha aktiv fəaliyyət göstərsinlər. Bəzi rayonlarda investisiyanın cəlbi ilə bağlı bir sıra işlər görülür. Biz bunu müxtəlif səfərlərdə görürük. Ancaq Şirvan şəhərində bu sahədə vəziyyət qənaətbəxş deyil. Vaxt var idi bu şəhər sənayeləşmənin səviyyəsinə görə Sumqayıtdan sonra ikinci şəhər idi. Doxsanıncı illərdə məlum səbəblərdən bu sahədə tənəzzül yaşandı. Azərbaycan dövləti maraqlıdır ki, insanlar sahibkarlıqla məşğul olsunlar, rayonlara sərmayə gəlsin. Ancaq sərmayələrin Şirvan şəhərinə cəlbi arzuolunan səviyyədə deyil. Şəhərdə elə böyük sənaye uğuru yoxdur. İnvestorlar cəlb olunsaydı, bu özünü şəhərin inkişafında göstərərdi. Bu gün Şirvan şəhəri Sumqayıt, Yevlax kimi inkişaf etmir. Baxmayaraq ki, Şirvan şəhərinin çoxşaxəli kadr potensialı var. Əmək qabiliyyətli insanlar çoxdur. Həmçinin, yaxşı təhsil alan mütəxəssislər var ki, iş tapa bilmirlər. Sərmayə cəlb edilsə, bacarıqlı kadrlar qabağa çəkilsə, vəziyyət tamam fərqli olar. Ona görə də bu sahədə görüləsi işlər çoxdur. Bir sözlə, bəzi rayonlara sərmayə cəlb edilməsi istiqamətində müəyyən dinamika olsa da, bunu bütün rayonlara şamil etmək doğru olmaz".

***Təranə Əhməd:** "Bəzi rayonlara sərmayə cəlb edilməsi istiqamətində müəyyən dinamika olsa da, bunu bütün rayonlara şamil etmək doğru olmaz"*



***Vidadi ORDAHALLI***

# Çin kapitalının Azərbaycana yeni axın mərhələsi başlayır...

**Məlum olduğu kimi, aprelin 25-də Çinin paytaxtı Pekində "Bir kəmər, bir yol" strategiyası çərçivəsində ikinci beynəlxalq əməkdaşlıq forumu keçirilməsinə start verilib. Tədbirdə dövlət və hökumət başçıları, digər dövlət rəsmiləri, özəl sektor nümayəndələri, sərmayədarlar, beynəlxalq təşkilatların nümayəndələri iştirak edirlər.**



## *"Bu, müxtəlif sahələrin inkişafı üçün geniş meydan açır"*

***Fikrət Yusifov:** "Tərəflər arasında 821 milyon dollarlıq 10 sənədin imzalanması böyük iqtisadi uğurdur"*

Sözügedən tədbirlə əlaqədar Prezident İlham Əliyevin rəhbərliyi altında böyük nümayəndə heyəti Pekində səfərdədir. İşgüzar səfər çərçivəsində Prezident İlham Əliyev Çinin Sədri Si Cinpinlə və bir sıra böyük şirkət rəhbərləri ilə görüşlər keçirib. Keçirilən görüşlər zamanı bir sıra məsələlər müzakirə edilib.

Azərbaycan Cənubi Qafqaz regionunda Çinin əsas ticarət tərəfdaşıdır. Belə ki, Çinin Cənubi Qafqaz ölkələri ilə ticarətində ölkəmizin payı 43 faiz təşkil edir. Bununla yanaşı, Pekində Azərbaycan və Çin şirkətləri arasında ümumi dəyəri 821 milyon ABŞ dolları olan müxtəlif istiqamətlər üzrə 10 sənəd imzalanıb. Daha sonra Sumqayıt Kimya Sənaye Parkı ərazisində şin istehsalı zavodunun qurulmasına, Kürdəmir rayonunda 300 hektaradək sahədə müasir istixana kompleksinin tikintisinə, Quba, Xaçmaz və Göyçayda aqro-logistik sənaye parklarının yaradılmasına, "Azerbaijan Digital HUB" proqramı çərçivəsində Asiya-Avropa telekommunikasiya dəhlizinin yaradılmasına, "Transxəzər" nəqliyyat dəhlizi vasitəsilə Bakıya və Azərbaycan ərazisindən tranzit keçməklə digər ölkələrə 2500-dək konteynerin daşınmasına, Azərbaycan istehsalı şərab və digər spirtli içkilərin Çinə ixracına, Çinin Çendu şəhərində Azərbaycan Ticarət Evinin yaradılmasına dair Əməkdaşlıq Memorandumu imzalanıb.

Görünən odur ki, Azərbaycanla Çin arasında iqtisadi sahədə bir sıra mühüm müqavilələr imzalanıb. Bütün bunlardan nə gözlənir və ekspertlər bunu necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, imzalanan sənədlərin mühüm əhəmiyyəti var:** "Son illər Çin ilə Azərbaycan arasında dostluq və tərəfdaşlıq münasibətləri getdikcə dərinləşir. Çinin Azərbaycanla əməkdaşlıqda böyük maraqları var. Çinin Qərblə Şərqi birləşdirən bir məkan kimi Azərbaycana olan maraqları olduqca böyükdür. Təbii ki, coğrafi yerləşməmiz, iqtisadi sahədə apardığımız davamlı islahatlar, ölkədə artıq illərlə hökm sürən ictimai-siyasi sabitlik Çin kimi böyük və güclü bir dövləti bizimlə əməkdaşlıqda maraqlı edə bilən əsas şərtlərdir. Heç şübhəsiz, biz də dünyanın iqtisadi cəhətdən ikinci nəhəng ölkəsinin bizə olan münasibətindən maksimum yararlanmaq istəyindəyik. Çindən Qərbə daşınan yüklərin az bir hissəsinin Azərbaycan üzərindən keçməsi bizə böyük ölçülərdə valyuta gəlirləri gətirə bilər. Ölkələrimiz arasındakı münasibətlərdə bizim başlıca hədəflərimizdən biri və mən deyərdim ki, birincisi tranzit yükdaşımalar sahəsində əməkdaşlığı yüksək səviyyədə qurmaqdan ibarətdir. Azərbaycan və Çin rəhbərlərinin dəstəyilə ölkələrimiz arasındakı siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlıq inkişaf edir".

F.Yusifovun fikrincə, müxtəlif istiqamətlər üzrə tərəflər arasında 821 milyon dollarlıq 10 sənədin imzalanması böyük iqtisadi uğurdur: "Azərbaycan biznes mühitinin Çinlə bu cür əlaqələr qurması böyük uğurdur. Bu, müxtəlif sahələrin inkişafı üçün geniş meydan açır. Görünən odur ki, iki ölkə arasında əlaqələr daha da genişlənir və bu sahədə böyük uğurlar var. Hesab edirəm ki, iki ölkə arasında əlaqələrin genişlənməsində, Azərbaycan üzərindən tranzit yükdaşımaların artmasında Prezident İlham Əliyevin Çinə son işgüzar səfəri müstəsna əhəmiyyətə malik olacaq".

***Vidadi ORDAHALLI***

# Koloradonun qondarma "DQR"in "müstəqilliyi"ni tanıması həqiqətdirsə - Azərbaycanın ABŞ-a ən sərt etirazlarına əsaslar var

**Amerikanın Kolorado ştatı da işğalçı və separatçı ermənilərə qahmar çıxanların siyahısına qoşulub. Erməni KİV-inin verdiyi məlumata görə, Kolorado ştatının Senatı aprelin 24-də qondarma və saxta "erməni soyqırımı"nı pisləyən qətnamə qəbul edib. Həmin qətnaməyə Azərbaycanın işğal altındakı torpaqlarında qondarılmış separatçı-terrorçu rejimin "müstəqilliyi"ni tanıyan maddə də daxil edilib.**



Azərbaycan bu məsələyə rəsmi mövqeyini bildirib. Həmin mövqedə qeyd olunur ki, ermənilər məlumatı bir qədər təhrif ediblər. Azərbaycan Xarici İşlər Nazirliyi ABŞ-ın Kolorado ştatının Senatı tərəfindən qondarma "erməni soyqırımı" ilə bağlı qətnamənin qəbul edilməsi və bu qətnamədə ölkəmizin işğal edilmiş torpaqlarında yaradılmış qondarma qurumun tanınması ilə bağlı yayılan məlumat barədə açıqlama verib. Nazirliyin Mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva bildirib ki, 24 aprel tarixində Kolorado ştatının 35 nəfərlik Senatı qondarma "erməni soyqırımı" ilə bağlı qətnamə qəbul edib. Bu qətnamədə Ermənistan və qondarma "Artsax"ın Türkiyə və Azərbaycan tərəfindən "blokadasına" istinad edilir və guya ki, Naxçıvan Muxtar Respublikasında "erməni xristian irsinin" "mədəni soyqırımı"nın törədildiyi iddia edilir:

"Qeyd etmək istərdik ki, bəzi media nümayəndələri qətnamədə işğal altındakı torpaqlarımızda yaradılmış qondarma quruma istinadən guya həmin qurumun tanınması kimi təqdim etməyə cəhd edib. Vurğulamaq istərdik ki, sözügedən qətnamənin mətni onu ifadə etmir və hər hansı bir qurumun "dövlət" kimi tanınması, ümumiyyətlə, ştat qanunverici orqanının səlahiyyətləri xaricindədir".

L.Abdullayeva bildirib ki, praktiki və hüquqi əhəmiyyəti olmayan belə simvolik qətnamələr ştatlar üçün də hər hansı bir nəticə doğurmadığı üçün, qısa prosedurla qəbulu mümkün olur.

Nazirlik rəsmisinin sözlərinə görə, ölkəmizin ABŞ-dakı Səfirliyi tərəfindən Kolorado Senatının rəhbərliyi və hər bir üzvünə ölkəmizlə bağlı yol verilmiş ciddi təhriflər və yanlışlıqların aradan qaldırılmasına çağıran məktublar göndərilib və müvafiq görüşlərin keçirilməsi nəzərdə tutulub.

İstənilən halda, ABŞ ştatlarının ölkəmizə qarşı nümayiş etdirdiyi bu davranışlar birmənalı şəkildə pislənməlidir. Hətta bunun qarşısının alınması üçün müvafiq addımlar da atılmalıdır. ABŞ ştatlarının bu cür qərəzli mövqeyinə qarşı hansı səviyyədə münasibət bildirilməlidir. Azərbaycan hakimiyyəti bu istiqamətdə hansı addımları atmalıdır?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu cür məsələlərə səthi yanaşmaq olmaz: "Bizim hansısa qurumun bir təkzib verməsi və ya materiala düzəliş etməsilə də iş bitmir. Burda ABŞ əsas kimi ştatların azadlığını qeyd edir. Biz analoji izahla Fransanın da timsalında tanış olmuşuq. Onlardan da qondarma qurum ərazisinə edilən səfərlərə belə izah verilirdi ki, bunu yerli özünüidarəetmə qurumları edir. Ancaq bir çox etirazlardan sonra bu sahədə bir sakitlik yarandı. Nə qədər olsa da, dövlətin həmin məsələlərə müdaxilə etmək, təsir göstərmək və əna azı, bir təbliğat apara bilmək kimi imkanları, resursları var. Düzdür, ABŞ ştatlarının qanunverici orqanları müstəqildir. Hətta elə ştat var ki, onun qanunvericiliyi digərindən köklü şəkildə fərqlənir. Məsələn, ştatların bəzilərində ölüm hökmü qalsa da, əksər ştatlarda bu ləğv olunub. Amma biz burada fərqli bir yanaşmanın şahidi oluruq. Əvvəl ştatlar qondarma "soyqırımı" tanımaqda yarışa girmişdilər. Hazırda, demək olar ki, bütün ştatlar qondarma "soyqırımı" tanıyıb. İndi isə bunun üzərində "Artsax", Naxçıvan mövzularına ram atırlar. O yerlərə ki, ermənilərin açıq ərazi iddiaları var. Hətta qəbul edilən qətnamələr simvolik xarakterli olsalar belə, bunun gələcək üçün acı nəticələri ola bilər. ABŞ Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında həmsədrlik edən ölkələrdən biridir. Hər halda, onun daxilində belə təbliğatın aparılması ürəkaçan deyil. Bunun üçün Azərbaycan bütün rəsmi kanallarla ABŞ-a sərt etirazını bildirməlidir. Artıq qondarma qurumun adı ilə bağlı təbliğatın artması təsadüfi sayıla bilməz. Erməni təbliğat maşını bütün vasitələrlə "Artsax" adını insanların psixikasına hopdurmaq istəyir".

Politoloqun sözlərinə görə, ermənilər əksər hallarda hamı üçün mümkün olan sadə prosedurlardan istifadə edirlər: "Biz onları gözləməməliyik. Ştatların qanunvericilik orqanlarında olan həmin prosedurları yaxşı öyrənib, biz də lazım olan qanun layihələrini təqdim etməliyik. Bu sahədə lobbi fəaliyyətimizi gücləndirməliyik. Bir sözlə, düşmənlə öz dilində danışmağı tətbiq etməliyik. ABŞ-ın bütün ştatları və rəhbərliyinin nəzərinə çatdırmaq lazımdır ki, Naxçıvanda heç bir xristian izi dağıdılmayıb. Əksinə, belə vandallığı ermənilər Dağlıq Qarabağda ediblər. Qondarma qurumu isə blokadada biz yox, erməni silahlı birləşmələri saxlayır. Azərbaycan öz ərazisini niyə blokadada saxlamalıdır? Əksinə, onlar münaqişə boyunca həmin sənədə adını daxil etdikləri Naxçıvanı blokadada saxlayırlar. Bir sözlə, öz etdiklərini bizim adımıza çıxmaq istəyirlər. Hətta ciddi təsir imkanı olmasa da, Kolorado ştatının qəbul etdiyi qətnamə pislənməli, onun ləğvi üçün bütün zəruri addımlar atılmalıdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Bakının gur yerlərində səyyar satış bərpa olunur, ayrıca geyimlər - qəzet satışı canlanacaqmı...

**Məlum olduğu kimi, Mətbuat Şurasının (MŞ) İdarə Heyətinin iclası keçirilib. İclasda bir sıra məsələlər, o cümlədən KİV-in Bakıda yayımının vəziyyəti ilə bağlı Mətbuat Şurasının keçirdiyi monitorinqin nəticələri müzakirə edilib.**



*"İstərdik ki, xüsusən insanların çox istifadə etdiyi metro stansiyalarında qəzet satışı bərpa edilsin"*

## *Azər Həsrət: "Səyyar yayımın bərpası qəzet satışında dönüş yarada bilər"*

Monitorinqin konkret məqsədi Bakı şəhərində, həmçinin, şəhərətrafı kəndlərdə və qəsəbələrdə qəzet satışının vəziyyətini, bu sahənin problemlərini və onların nədən qaynaqlandığını öyrənmək, qəzet satışı üçün nəzərdə tutulmuş köşklərin fəaliyyətini araşdırmaq, ölkədə qəzet satışının yaxşılaşdırılması məqsədilə təkliflər paketi hazırlamaq olub.

Monitorinq zamanı müəyyənləşdirilib ki, Bakı şəhərində və ətraf kənd-qəsəbələrdə 250 köşk (176-sı Bakının özündə olmaqla) fəaliyyətdədir. Onlarda qəzet satışı istənilən səviyyədə təşkil olunmur.

Monitorinq qrupu mövcud durumdan çıxmaq üçün müəyyən təkliflər də irəli sürüb. Qəzet yayımı işinin yaxşılaşdırılması ilə bağlı addımlar da bu təkliflər sırasındadır. Bura müstəqil yayım firmalarına şəraitin yaradılması, Bakı bulvarında, parklarda, şəhərin mərkəzi küçələrində, bazarlarda və s. yerlərdə səyyar satışın (əldə yayımın) bərpası daxildir. Bununla yanaşı, təkliflərdə iri market şəbəkələrində qəzet satışının təşkili, Bakı Dəmiryol Vağzalında, Heydər Əliyev Hava Limanında, Bakı Beynəlxalq Avtovağzalında və digər bu kimi yerlərdə qəzet satışının bərpası öz əksini tapıb. Həmçinin, digər təkliflər verilib.

Təkliflərə, eyni zamanda, Bakı Metropoliteninin stansiyalarında qəzet satışının bərpası üçün tədbirlərin görülməsi, Metropoliten stansiyalarının çıxışlarında qəzet köşklərinin sayının artırılması da daxildir. İclasda bu kimi məsələlər ətrafında müzakirə aparılıb və irəli sürülmüş təkliflərin ölkə rəhbərliyinə çatdırılmasına dair müvafiq tapşırıqlar verilib.

Maraqlıdır, səyyar qəzet satışının bərpası ilə bağlı sözügedən tədbirlərin həyata keçirilməsi ölkədə qəzet satışında dönüş yarada bilərmi?

**Məsələyə münasibət bildirən media eksperti Azər Həsrətin fikrincə, səyyar qəzet yayımı ilə bağlı irəli sürülən təkliflər qəzet satışında dönüş yarada bilər:** "Mətbuat Şurası Azərbaycanda qəzet yayımının, satışının daha optimal bir şəkildə təşkil edilməsində maraqlıdır. Çünki nəzərə almaq lazımdır ki, vətəndaşların bir hissəsi hələ də qəzet oxuyur. Yeni informasiyanı qəzetlər vasitəsilə əldə etməyə üstünlük verir. Ölkənin ictimai-siyasi, mədəni həyatı ilə bağlı məlumatları qəzetlər vasitəsilə almaq istəyirlər. Təəssüflər olsun ki, qəzet yayımında problemlər var. Vətəndaşlar rahat şəkildə qəzet tapa bilmirlər. Şəxsən mən özüm də bir neçə dəfə belə hallarla üzləşmişəm və lazım olan qəzeti tapa bilməmişəm. Yeni ya yaxınlıqda köşk olmayıb, ya da köşk olsa belə, orada uyğun şəkildə qəzetin satışı təşkil olunmayıb. Ona görə də Mətbuat Şurası bu cür məsələlərin təhlilini, analizini apardı. Bununla bağlı müvafiq təkliflərlə çıxış etdi. Qəzet satışı ilə bağlı sözügedən təkliflər sistemləşdirilib müvafiq dövlət qurumlarına göndəriləcək. Biz istərdik ki, xüsusən insanların çox istifadə etdiyi metro stansiyalarında qəzet satışı bərpa edilsin. Eləcə də insanların kütləvi şəkildə toplaşdığı, gəzdiyi və istirahət etdiyi yerlərdə qəzet satışı təşkil olunsun. Hesab edirəm ki, ölkədə qəzet satışını normal məcraya yönəldə bilsək, qəzet satışında dönüş yarana bilər. Bundan Azərbaycan dövləti və xalqı qazanacaq. Eyni zamanda, mətbuatın daha möhkəm ayaqlar üstündə dayana bilməsi üçün əlavə imkanlar yaranacaq. O baxımdan səyyar yayımın bərpası qəzet satışında dönüş yarada bilər".

***Vidadi ORDAHALLI***

**Rusiya və ABŞ arasında getdikcə daha kəskin xarakter almağa başlayan ziddiyyətlərin daha bir təhlükəli məqamı üzə çıxır. Söhbət tərəflərin maraqlarının toqquşduğu məkanlarda mövcud münaqişə ocaqlarının qızışdırılmasından gedir. Belə münaqişə ocaqlarının mövcud olduğu məkanlardan biri isə MDB məkanı, o cümlədən də Cənubi Qafqazdır.**

# Rusiya və ABŞ-ın separatçı bölgələrdə açıq qarşıdurma dövrü başlayır - dinc Qarabağ prosesi alt-üst ola bilər...




Hadisələrin inkişaf axarı belə qənaətə gəlməyə əsas verir ki, yaxın tezlikdə Ukrynada və Qafqazda münaqişə ocaqları ilə bağlı proseslər daha təhlükəli məcrada inkişaf edə bilər. Söhbət buradakı münaqişələrin aktiv fazaya keçməsindən gedir.

Xatırladaq ki, bu xüsusda Moskva tərəfindən artıq müəyyən xəbərdarlıqlar edilib. Məsələn, Rusiyanın müdafiə naziri Sergey Şoyqu bildirir ki, indi münaqişə potensialı dünyanın bir çox regionlarında artmaqdadır: "İndi əsas tendensiya dünyanın müxtəlif regionlarında münaqişə potensialının artmasıdır. Dondurulmuş münaqişələr aktivləşdirilir. Yeni potensial silahlı qarşıdurma ocaqları yaranır, onların əksəriyyəti xaricdən qızışdırılır". Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev də eyni mövqedən çıxış edir: "Dünyadakı münaqişələrin əksəriyyəti üçüncü ölkələrin hərbi avantüralarının və ayrı-ayrı oyunçuların regional, bəzən də qlobal orbit rolunu üzərinə götürmək, beynəlxalq ictimaiyyətin digər üzvlərini onun əmrlərinə boyun əyməyə məcbur etmək cəhdlərinin nəticəsidir". Məhz belə bir vaxtda diqqət çəkən məqam ABŞ-ın Aralıq və qara dənizlərə hərbi qüvvələr cəmləməsi, Rusiyanın da bu yerlərə yeni ordu qüvvələri yeritməsi, xüsusən də Abxaziya və Cənubi Osetiyaya, Ermənistana əlavə hərbi texnika cəmləməsidir. ABŞ-ın Rusiyadakı səfiri Con Hantsman qeyd edir ki, indiki halda Aralıq dənizində "Linkoln" və "Con C. Stennis" təyyarədaşıyan gəmilərinin hərbi təlimləri Rusiyaya yönəlik bir siqnaldır. Hantsman ABŞ-ın hərbi təlimlərinin Rusiyanın qeyri-sabitliyə yol açan hərəkətlərinə cavab üçün lazım olduğunu deyib: "Aralıq dənizindəki iki təyyarədaşıyanın hər biri beynəlxalq diplomatiyanın 100 min tonluq təmsilidir. Bu gəmilərin güclü müdafiəsi ilə birləşən diplomatik təmaslar və dialoq Rusiyaya dərs olmalıdır. Rusiya ABŞ-la həqiqətən də daha yaxşı münasibətlərə sahib olmaq istəyirsə, dünyanın dörd bir tərəfindəki qeyri-sabitliyə yol açan hərəkətlərinə son verməlidir".

Bunlara cavab olaraq Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov bildirib ki, Moskva özünün qərb və cənub hərbi dairələrindəki qüvvələrinin tərkibini NATO və ABŞ-ın artan aktivliyinə cavab olaraq gücləndirmək məcburiyyətindədir. Onun sözlərinə görə, bu dairələrdəki qüvvələrin tərkibi digər hərbi dairələrdəki qüvvələrin sayının azaldılması hesabına gücləndiriləcək. Gerasimov bildirib ki, ABŞ-ın Avropada hava hücumundan müdafiə sistemlərini yerləşdirməsinə cavab olaraq Rusiya öz qoşunlarına perspektivli silahların tədarükünü prioritetə çevirib.

Qeyd edək ki, Rusiya Cənub Hərbi Dairəsi Rusiyanın cənub sərhədlərinin müdafiəsinə cavabdehdir. Belə ki, bu hərbi dairənin tərkibində Krımdakı, Rusiyanın Ukrayna ilə sərhədindəki, Şimali Qafqazdakı, Abxaziya, Cənubi Osetiya və Ermənistandakı qoşunları daxildir. Xəzər donanması və Qara dəniz donanması da Cənub Hərbi Dairəsinin tərkibində yer alır. Bu hərbi dairə, həmçinin, Rusiyanın Suriyadakı əməliyyatlarına da nəzarəti həyata keçirir. Hazırda Rusiya bu istiqamətdə mövqelərini gücləndirir. Rusiyanın Ermənistanın Erebuni aerodromundakı aviasiya bazasına "Su-30SM" tipli çoxməqsədli qırıcıları yerləşdirmək niyyəti də buradan qaynaqlanır. Bu məqsədlə Ermənistana ümumilikdə 18 qırıcı göndəriləcək. Hərbi ekspert Üzeyir Cəfərov məsələnin bu tərəfiənnəzər saraq qeyd edir: "Son zamanlar Rusiyanın Qafqazla və Xəzər dənizi ilə bağlı ciddi planları var. Bu planlar müdafiə naziri Sergey Şoyqunun diqqətinə çatdırılıb və göstəriş verilib ki, ən müasir texnika və silah-sursatlar Dağıstandakı Hərbi Dəniz Qüvvələrinin yerləşdiyi bazaya, həm Ermənistandakı 102-ci bazaya, həm də Erebunidəki aerodroma yerləşdirilsin. Su-30SM"in bütün texniki xarakteristikası yenilənib. Texniki göstəriciləri, manevr imkanları, eyni zamanda bir neçə hədəfi sıradan çıxarması xüsusiyyətləri nəzərdən keçirilib". Regionda hərbi qüvvələrini artıran tərəflərin, yuxarıda qeyd olunduğu kimi, istifadə edə biləcəkləri ən təhlükəli taktikalardan biri isə baş verənlərin regional münaqişələrə təsiridir.

Hazırda görünən budur ki, bu hal ilk olaraq Ukraynada özünü göstərə bilər. Belə ki, hazırda Rusiya və ABŞ Ukrayna istiqamətində də aktiv şəkildə hərbi texnika cəmləşdirir. Bununla yanaşı, Rusiya prezidenti Vladimir Putin daha bir təhlükəli addım ataraq Ukraynanın cənub-şərq regionunun bir sıra rayonlarının sakinlərinə asanlaşdırılmış qaydada Rusiya vətəndaşlığı almağa icazə verən fərman imzalayıb. Sənədin mətni Kremlin rəsmi saytında dərc olunub və burada qeyd olunur: "Müəyyən edilsin ki, Ukraynanın Donetsk və Luqansk vilayətlərinin bəzi rayonlarında daimi yaşayan şəxslər Rusiya Federasiyası vətəndaşlığının alınması üçün sadələşdirilmiş qaydada müraciət hüququna malikdir". Bunlar isə o deməkdir ki, həmin separatçı rejimləri Rusiya Gürcüstandakı kimi açıq müdafiəyə keçir. Rusiya prezidentinin fərmanı ilə Donetskdə və Luqanskda separatçıların nəzarət etdiyi bölgələrdə yaşayan insanlara Rusiya vətəndaşlığı veriləcək. Bu o deməkdir ki, separatçıların nəzarət etdiyi bölgələrdə yaşayanların böyük əksəriyyəti Rusiya pasportlarına yiyələnəcək. Ukraynanın bu istiqamətdə mümkün hücumuna isə Rusiya vətəndaşlarını qorumaq adı ilə hərbi cavab verəcək. Xatırladaq ki, bu ssenari 2008-ci ildə Gürcüstanda tətbiq edilib, nəticədə Cənubi Osetiya, Abxaziya Gürcüstandan daha çox ayrılıb.

"Rossiya 1" televiziyasında çıxışı zamanı Rusiya Liberal Demokrat Partiyasının lideri Vladimir Jirinovski isə bildirib ki, Rusiya hətta Xarkov, Dnepr, Çerniqov və digər Ukrayna şəhərlərinə müdaxiləyə hazırdır.

**O, bu şəhərlərdə qırğınların başlanmasından sonra Rusiyanın duruma müdaxilə edəcəyini deyib: " Xarkov, Dnepr, Çerniqov və digər şəhərlərdə qırğınlar başlasa, könüllülərimiz insanlarımızın müdafiəsi üçün buraya gedəcək. Yeni yeni Suriya, yeni Əfqanıstan yaranacaq". Ukraynadan sonra Qafqazda, Moldovada da separatçılıq ocaqlarının yenidən qızışdırılması istisnalıq təşkil etmir.**

***Tahir TAĞIYEV***

# Məşhur erməni canisi Qaregin Njdenin cinayət tarixçəsində "ermənilərin də qan izləri" tapıldı...

**Erməni terrorunun bütün dünyada izləri var. Bəlkə də dünyada çox az xalq tapılar ki, o, erməni terroruna məruz qalmasın. Daşnak ideologiyasının daşıyıcısı olan ermənilər və onların liderləri XX əsrdə yaranan faşizmə də sadiqlikləri ilə seçilirlər.**



*"Həqiqətən də Njde çox vəhşi xarakterə malik insan olub və o yalnız şər əməllərinə görə tarixdə qalıb"*

***Qasım Hacıyev:*** *"Həm Njde, həm Amazaps, həm də digərləri azərbaycanlılara, başqa xalqlara, onların əmrlərini yerinə yetirməyən, ideologiyasını qəbul etməyən ermənilərə də qarşı qətliamlar, cinayətlər törədiblər"*

Njde Qaregin faşizmin nökərlərindən biri kimi tarixdə qara bir iz qoyub. Ermənilər uzun illər Njdeni "qəhrəman" kimi təqdim və təbliğ etməyə çalışsalar da, bu faşist xislətli insana abidələr ucaltsalar da, xatirəsini əbədiləşdirsələr də, onun tarixdə oynadığı mənfi rolun üstünü ört-basdır edə bilməyiblər. Tarixi həqiqətləri öyrənməkdə, təbliğ etməkdə maraqlı olan dünya tarixçiləri N.Qareginin bütün cinayətkar əməllərini ifşa etməkdə davam edirlər. Onun cinayət əməllərinin sferası, hədəfi, dairəsi o qədər genişdir ki, vaxtaşırı olaraq tədqiqatçılar tərəfindən bu şəxsin törətdiyi cinayətlərlə bağlı yeni məlumatlar, faktlar ortaya çıxarılır. Lakin bu faktlar o qədər çoxdur ki, bitib-tükənmək bilmir. Bu gün alimlərin Njdenin bioqrafiyasına dair üzə çıxardığı faktlar onun ətrafında yaradılan mifləri darmadağın edir.

Bu sahədə bir sıra tədqiqatlar aparan, kitablar yazan rusiyalı ekspert Oleq Kuznetsov Ermənistanın "Daşnaksütyun" partiyasının üzvü Njde Qareginin həyatına və cinayət fəaliyyətinə dair gizli sənədləri təqdim edib. Bununla bağlı tədbir də keçirilib.

"Daşnaksütyun" partiyasının 1912-ci ildə erməni keşişini öldürməsini xatırladan O.Kuznetsov qeyd edib ki, partiya öz məqsədlərinə çatmaq üçün hətta soydaşlarını da öldürməkdən çəkinməyib. O vurğulayıb ki, Ermənistan N.Qareginin bioqrafiyasını saxtalaşdırır və onu qəhrəmana çevirməyə çalışır: "N.Qareginin inqilabçı fəaliyyəti sadəcə öz doğulduğu Kuznut kəndində aşağı çinli məmura göstərdiyi müqavimətlə məhdudlaşır. N.Qareginin heç bir inqilabi fəaliyyəti olmayıb. Ermənilər onun bioqrafiyasını saxtalaşdıraraq qəhrəman etməyə çalışırlar. Bunun səbəbi isə odur ki, Qaregin 1921-ci ildə Cənubi Qafqazda ikinci qondarma "Dağlıq Ermənistan Respublikası" elan edib. Bununla da o, gələcəkdə Dağlıq Qarabağ münaqişəsinin bünövrəsini qoyub. Yaxın zamanda erməni millətçilərinin fəaliyyətinə dair sənədlərin yer alacağı sayt yaradılacaq".

Onu da vurğulayaq ki, yeni üzə çıxarılmış sənədlərdə vurğulanır ki, erməni kilsəsinin tələblərini dəstəkləməyən ermənilərə qarşı da Njde qətliamlar törədib.

Qeyd edək ki, bir müddət əvvəl O.Kuznetsov Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin üzərindən məxfilik qrifi götürülmüş arxiv materiallarında sovet dövlət təhlükəsizliyi orqanlarında Ermənistanda nasizm ideologiyasının mövcudluğunu təsdiq edən sənədlərin olduğunu üzə çıxarıb.

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, həqiqətən də N.Qareginin törətdiyi cinayət əməllərindən ermənilər özləri də ciddi əziyyət çəkiblər.** Daşnak ideologiyasına xidmət edən, faşizmə qul olan Njdenin cinayət əməllərinin miqyasının geniş olduğunu xatırladan Q.Hacıyevin sözlərinə görə, O.Kuznetsov hər zaman Azərbaycanın mövqeyini dəstəkləyib və çox hazırlıqlı adamdır. "O bu gün ermənilərin cinayətkar əməllərinin ifşa edilməsi istiqamətində çox böyük işlər görür və bu sahədə çoxlu yazılar yazır. Onun üzə çıxardığı faktlar çox dəyərlidir, gərəklidir. Həqiqətən də Njde çox vəhşi xarakterə malik insan olub və o yalnız şər əməllərinə görə tarixdə qalıb. Tarixə bir cəllad kimi düşən Njde saysız-hesabsız cinayət törədib. Onun törətdiyi qətliamların sayı o qədər çoxdur ki, bu gün onu hesablamaq çox çətindir. Njde Azərbaycanın özündə çox böyük cinayətlər törədib. Onun ölkəmizin bir çox yerində törətdiyi qətliamlar saysızdır. Njde də, başqa erməni terror təşkilatlarının özləri də erməni xalqına da qarşı cinayətlər törədiblər. Onların ideologiyasını qəbul etməyən, erməni kilsəsinin göstərişlərini yerinə yetirməyən ermənilər Njde və digər erməni terror təşkilatlarının üzvləri tərəfindən qətlə yetiriliblər. Yəni onun (ların) fəaliyyətində ermənilərin özlərinə qarşı da törədilən cinayətlər az deyil. Onlar ermənilər içində kəşfiyyat aparan və erməniləri qaraçı adlandıranları qətlə yetirir, tapşırıqlarını yerinə yetirməyənləri ağır şəkildə cəzalandırırdılar. Belə faktlar var, özü də az deyil. Njdenin də sadiq nökəri olduğu faşizm İtaliyada yarandı və Almaniyada geniş yayıldı. Ermənizm elə faşizm qədər təhlükəlidir, qəddardır. Həm Njde, həm Amazaps, həm də digərləri azərbaycanlılara, başqa xalqlara, onların əmrlərini yerinə yetirməyən, ideologiyasını qəbul etməyən ermənilərə də qarşı qətliamlar, cinayətlər törədiblər" - deyə bildirən Q.Hacıyevin sözlərinə görə, faşist Njdenin cinayət əməllərinin üstü açıldıqca, bu onun ətrafında yaradılan "qəhrəman" mifinin bütün dünyada dağıdılmasına xidmət edəcək.

*İradə SARIYEVA*

# Jan-Kristof Paskal: "Terrorçu "Allahu Əkbər" deyərək kimisə öldürürsə, deməli, o, aranı qarışdırır, çaşqınlıq yaradır"



**Terrorçu "Allahu Əkbər" deyərək kimisə öldürürsə, deməli, o, aranı qarışdırır, çaşqınlıq yaradır.**

"Trend"in məlumatına görə, bunu Fransanın dini işlər üzrə məsləhətçisi Jan-Kristof Paskal Bakıda keçirilən "Dinlərarası dialoq və radikalizmlə mübarizə" mövzusunda II Beynəlxalq konfransda deyib.

O qeyd edib: "Biz dinlərarası dialoqdan danışırıq, lakin ziddiyyətli məsələləri müşahidə edirik. Yeni Zelandiyada və Şri-Lankada insanlar hücuma məruz qalır. Dinlərarası dialoq belədirsə, deməli, biz çox mürəkkəb vəziyyətə gəlib çatmışıq. Təbii, dünyada elə bir ölkə yoxdur ki, bu cür hadisələrdən sığortalansın".

J.Paskalın fikrincə, zorakılıqla din arasında fərq qoyulmalıdır. Dinlər bu məsələdə günahsızdır: "Terrorçu "Allahu Əkbər" deyərək kimisə öldürürsə, deməli o, aranı qarışdırır, çaşqınlıq yaradır. Biz elə etməliyik ki, gənclər dinin bundan ibarət olduğunu düşünməsin. Biz yollar axtarmalıyıq. Bizim cəmiyyətlərimiz plüralist cəmiyyətlərdir, müxtəlif etnik mənsubiyyətlərdən ibarətdir. Biz bu fərqləri problem kimi yox, zənginliyin nümunəsi kimi görməliyik".

# Koreya lideri Kim Çen In Putinə qılınc, Putin isə ona ... hədiyyə etdi



**Şimali Koreya rəhbəri Kim Çen In Rusiya Prezidenti Vladimir Putinə Koreya qılıncı hədiyyə edib.**

"Trend"in məlumatına görə, iki ölkə rəhbəri arasında ilk danışıqlar başa çatıb.

Qılıncı təqdim edərkən Kim Çen In bildirib ki, bu qılınc Koreya xalqının gücünü və ruhunu təcəssüm etdirir.

Qeyd edək ki, Kim Çen In aprelin 24-ü qatarla Rusiyanın Vladivostok şəhərinə səfər edib. İki ölkə rəhbəri arasında ilk görüş aprelin 25-də baş tutub. Təkbətək görüş iki saata yaxın davam edib.

Rusiyada səfərdə olan Şimali Koreya rəhbəri Kim Çen In da ölkəsinə əliboş qayıtmayıb. Belə ki, Rusiya Prezidenti Vladimir Putin də koreyalı liderə stəkan dəsti və stəkan altlıqları hədiyyə edib.

**Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Rzayev bir neçə gün əvvəl intihar edərək dünyasını dəyişən Elinanın ölümündə təqsiri olduğu iddia edilən və azyaşlı qızın son görüntülərini telefona çəkən Səbail rayon icra başçısının müavini Xalidə Bayramovanı müdafiə edən məqalə ilə çıxış edib.**

*"Zaman-zaman bizim aid olduğumuz coğrafiyada kitabsızlıq bir qarğış növü kimi səslənib"*

# Anarın Xalidə Bayramovanı müdafiəsi bir yana - kitablardan qisas almaq nə demək...

***Əkbər Qoşalı:*** *"Kitab yandırma kimi aksiya gətirib sonda kitabsızlığa çıxarır"*



Yazıçı bu məsələdə X.Bayramovanın günahının olmadığını bildirib. Anar Rzayevin bu hərəkəti birmənalı qarşılanmayıb və sosial şəbəkələrdə ciddi müzakirələrə səbəb olub. Ən maraqlısı budur ki, bu hərəkətə etiraz edənlər Anarın müəllifi olduğu kitabları yandırmaq, onlardan imtina etmək kimi çağırışlar ediblər. Bizim üçün bu məsələdə maraqlı olan kitaba bəslənən münasibətdir. Hansısa müəllifin mövqeyi kiminsə xoşuna gəlməyə bilər və bu təbiidir. Buna etiraz etməyin müxtəlif sivil yolları var. Bu baxımdan, fikri ilə razılaşılmayan müəlliflərin kitablarının məhv edilməsi, onlardan imtina ilə bağlı səslənən çağırışları necə qarşılamaq olar?

**Atatürk Mərkəzinin şöbə müdiri, şair-publisist Əkbər Qoşalı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə addımların atılmasını təqdir etmir:** "Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yeri və rolu həm xalq, həm də dövlət tərəfindən etiraf edilən bir yazıçının kitablarını məhv etməyə olan çağırış qəbuledilməz hərəkətdir. Kitab yandırma kimi aksiya gətirib sonda kitabsızlığa çıxarır. Zaman-zaman bizim aid olduğumuz coğrafiyada kitabsızlıq bir qarğış növü kimi səslənib. Mən yazıçıların arasında fərq qoymaq istəmirəm. Ümumiyyətlə, hesab edirəm ki, belə bir hərəkət heç bir müəllifə qarşı olunmamalıdır. Yaradıcı adamın yazdığı kitablara qiyməti həm zaman verir, həm də oxucu. Ola bilər ki, müəllif gözəl əsərlər yazsın, sonra hansısa pis bir hərəkət etsin. Heç bunun özü də onun əvvəl yazdığı kitablardan imtinaya əsas vermir. Məhz Anar müəllim kimi ziyalıların səyi nəticəsində Azərbaycanda kitaba maraq çoxalıb, bu yöndə çox mühüm işlər görülüb. Yazıçıya əsərlərinə görə qiymət verilməlidir. Anar müəllimin yazdığını bəyənməyənlər ondan daha yaxşı əsər yazmağa cəhd etməlidirlər. Hansısa hadisəyə münasibət yazıçının tərcümeyi-halını müəyyənləşdirə bilməz. Yazıçıya qiyməti onun əsərlərinə görə verirlər. Anar müəllim yalnız ölkə səviyyəsində tanınmır. Ona bizim bəslədiyimiz münasibətə görə bizə qiymət verəcəklər. Bunu mütləq nəzərə almalıyıq. Narazılıq sivil formada olmalıdır, hadisəyə adekvat şəkildə özünü göstərməlidir. Şəxsən mənim özümün də hər hansı bir məsələdə Anar müəllimlə razılaşmadığım vaxtlar olub. Bu, sabah da ola bilər. Amma bu heç də əsas vermir ki, mən onun yaradıcılığından qisas alım".

***Məhəmmədəli QƏRİBLİ***

---

**İçərişəhər iç şəhərimizdir. Lakin bəzən əlaqədar qurumlar tərəfindən tariximizin incisi olan İçərişəhərə laqeyd münasibət özünü göstərir. Belə ki, sosial şəbəkələrdə və bəzi saytlarda Bakının qədim tarixini özündə əks etdirən və UNESCO-nun Ümumdünya İrs Siyahısında yer alan İçərişəhərin qala divarlarına son vaxtlar müdaxilələr edildiyi barədə fotolar paylaşılıb.**

***Faiq İsmayılov:*** *"İçərişəhərə turist axınının güclü olması bəzi bədxahları hərəkətə keçməyə vadar edib"*

***Rahib Azəri:*** *"Bu dağıntının, sökülən tikililərin qala divarlarına heç bir aidiyyəti yoxdur"*

# Sosial şəbəkələrdə hay-küylə paylaşılan "xarabazar fotoların" İçərişəhərə aidiyyəti qəti inkar olunur...



Sosial şəbəkələrdə yayılan fotolara baxdıqda belə nəticəyə gəlmək olur ki, qala divarına müdaxilə edilib və orada hansısa bir yeni tikili inşa edilir. Sosial şəbəkələrdə yayılan məlumata görə, müdaxilə edilən ərazidə kafe inşa edilir. Bu mənzərəni əks etdirən fotoların İçərişəhər Tarix Memarlıq Qoruğu İdarəsi tərəfindən burada aparılan təmir-bərpa işləri ilə tanış olmaları üçün bir qrup jurnalistin əraziyə təşkil edilən mediaturu zamanı lentə alındığı bildirilir.

Sosial şəbəkələrdə yayılan bu fotolar cəmiyyətdə ciddi rezonans doğurub və bu məsələyə, demək olar ki, cəmiyyətin müxtəlif zümrələri münasibət bildirib və bildirməkdə də davam edirlər.

Mənzərəni şərh edənlər sosial şəbəkələrdə bu halı "vandalizm", maddi-mədəni və tarixi irsimizə "qəsd" adlandırırlar. Onlar hesab edirlər ki, İçərişəhərin bu şəkildə dağıdılması bizimlə tariximiz arasındakı əlaqələrin qırılmasına səbəb olacaq.

**"Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı" İctimai Birliyinin sədri Faiq İsmayılov "Bakı-Xəbər"ə bildirdi ki, baş verənlər həqiqətən də dəhşətlidir.** "Bu elə bir hadisədir ki, ona şərh verməkdə adam çətinlik çəkir. Sosial şəbəkələrdə həmin fotoları mən də izləmişəm. Baş verənlər həm beynəlxalq konvensiyalara, həm də Azərbaycanın daxili qanunvericiliyinə ziddir. Bu, Milli Məclis tərəfindən 1998-ci ildə qəbul edilən "Abidələrin qorunması və mühafizəsi haqqında" Qanunla da ziddiyyət təşkil edir. Abidəyə müdaxilə qətiyyən yolverilməzdir. Bir neçə il əvvəl İşərişəhərin qala divarları bərpa edilərkən orada mişar daşlarından istifadə edilirdi. Biz o vaxt ona müdaxilə edərək göstərdik ki, qala divarlarının hörüldüyü daşlardan nümunələr götürülməli və həmin daşların eyniləri gətirilərək divara hörülməlidir. Bütün abidələr olduğu kimi qorunub saxlanmalıdır. İçərişəhər başıbəlalı bir yerdir. Orada həm qazıntılar olur, tikililərə, qala divarlarına müdaxilələr olunur. Bu ondan irəli gəlir ki, hazırda İçərşəhərə maraq göstərənlərin sayı çoxalıb. Xarici turistlərin əsas diqqət göstərdiyi məkanlardan biri İçərişəhərdir. İçərişəhərə turist axınının güclü olması bəzi bədxahları hərəkətə keçməyə vadar edib. Onlar qazanc götürmək məqsədilə orada ticarət obyektləri, kafelər tikməyə çalışırlar. Əgər doğrudan-dan da o adamların ərazidə tikinti aparmaq üçün aidiyyəti qurumlardan icazələri, sərəncamları olsa da belə, bu yenə də qanunsuzdur. Çünki divara müdaxilə etmək, ona bitişik bina tikmək olmaz. Bu, ümumi qanunlara ziddir" - deyə F.İsmayılov qeyd etdi.

**İçərişəhər Tarix Memarlıq Qoruğu İdarəsinin mətbuat katibi Rahib Azəri bizimlə söhbətində bildirdi ki, burada heç bir söküntü işləri aparılmır.** "Burada heç bir söküntü işinin aparılması mümkün deyil. İçərişəhər Tarix Memarlıq Qoruğu İdarəsinin işi tarixi qala divarlarında, İçərişəhərdə tarixi abidələri qorumaq və onların saxlanması üçün müntəzəm olaraq bərpa işləri aparmaqdır. Bizim burada apardığımız işlər ancaq bərpa ilə əlaqədardır".

R.Azəri, həmçinin, qeyd etdi ki, sosial şəbəkələrdə paylaşılan söküntü işlərinin qala divarlarına aidiyyəti yoxdur. Sökülən bir neçə il öncə tikilmiş restoranın divarlarıdır: "Divarlarda qədim dövrdən qalanın tikintisi zamanı istifadə edilən daşlarla birgə yeni daşlar görməyiniz də normaldır. Bunlar xüsusilə Sovet dövründə, daha dəqiq desək, 50-ci illərdə aparılan bərpa işləri zamanı əlavə edilən daşlardır. Fikir verirsinizsə, həmin daşların arasından kollar, yabani bitkilər də çıxıb. O daşlar əgər bu günlərdə əlavə edilsəydi və ya 3-4 il ərzində tikilmiş olsaydı, o bitkilər orada bitə bilməzdi.

Sosial şəbəkələrdə paylaşılan dağılmış ərazilər də var. Görünür ki, əvvəllər nə isə tikilib, daha sonra isə sökülüb. Çoxları bunu qala divarlarının bir hissəsi hesab edir. Lakin bu dağıntının, sökülən tikililərin qala divarlarına heç bir aidiyyəti yoxdur. Əvvəl həmin yerdə restoran olub, fikir verin, restoranın sonradan quraşdırılmış su boruları da görünür. Hazırda həmin restoran sökülüb".

***İradə SARIYEVA***

**Azərbaycanda ilin əvvəlindən başlanan sosial-iqtisadi islahatlar bu gün beynəlxalq miqyasda da xüsusi diqqət cəlb edir. Xüsusən də bu islahatların ölkə əhalisinin maddi rifah halını əhəmiyyətli dərəcədə yüksəltməsi təkcə Azərbaycan cəmiyyəti yox, elə beynəlxalq aləmdə də təqdir olunur. Məsələn, Fransa Milli Assambleyasının deputatı, Fransa-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü Andre Vilye bütün bunları yüksək qiymətləndirir.**

# Fransada "Sarı jiletlilər" üsyanı və Azərbaycan - fransız deputatın maraqlı müqayisəsi...



Onun sözlərinə görə, Prezident İlham Əliyevin sosial müavinətlərin artırılması ilə bağlı sərəncamları əhalinin alıcılıq qabiliyyətinin artırılması üçün böyük əhəmiyyət daşıyır. O vurğulayır ki, əslində, "Sarı jiletlilər" Azərbaycandakına bənzər islahatlar tələb edirlər: "Hazırda Fransada davam edən "Sarı jiletlilər" hərəkatının üzvlərinin də öz dövlət başçılarından tələbi bu yöndədir. Azərbaycanda verilən qərar isə ölkə əhalisinin yaşayış səviyyəsini yaxşılaşdırmağa xidmət edir". A.Vilye Azərbaycanın imicinin dünya miqyasında artdığını, prezident İlham Əliyevin bu sahədə apardığı uğurlu siyasətin öz bəhrəsini verdiyini də vurğulayıb.

Proseslərin inkişaf axarı isə Azərbaycanda həyata keçirilən islahatların daha geniş miqyas alacağını, ölkənin bu istiqamətdə yeni nailiyyətlərə imza atacağını göstərir. Xatırladaq ki, bu xüsusda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən təqdim edilən "Doing Business 2020"yə dair islahat icmalı da yuxarıda qeyd olunan fikri təsdiq edir. İcmaldan belə bəlli olur ki, biznes mühitinin əlverişliliyinin daha da artırılması üçün vergi və gömrük islahatları davam etdirilir, onlayn vahid ixrac ərizəsi, "Yaşıl dəhliz", elektron məhkəmə, elektron satınalma, tikintidə bir pəncərə, biznesə başlama, elektrik enerjisinə çıxış, kreditlərə əlçatanlıq, müqavilələrin icrası və əmlakın qeydiyyatı sahələrində mühüm islahatlar aparılır. Bu səbəbdən Azərbaycanın növbəti ildə də ən islahatçı ölkə statusunu qoruyacağı gözlənilir. Qeyd edək ki, Dünya Bankının hazırladığı sonuncu "Doing Business" hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerə layiq görülüb və ən islahatçı ölkə elan olunub. Gələn il üçün də Azərbaycanın bu xüsusda mövqelərini daha da yaxşılaşdırması gözlənir. Bunu iqtisadçı ekspert Vüqar Bayramov da təsdiq edir. Onun sözlərinə görə, "Doing Business 2020"yə dair islahat icmalının təqdim edilməsi ondan xəbər verir ki, Azərbaycan hökuməti bu il də islahatları davam etdirmək və dərinləşdirmək niyyətindədir.

Ekspert qeyd edib ki, Azərbaycan "Doing Business 2019"da ən yaxşı investisiya mühitinə malik olan 25 ölkədən biri elan olunmuşdu: "Doing Business 2020"yə dair islahat icmalında 11 indikator üzrə mövcud vəziyyətin qiymətləndirilməsi, eləcə də təkmilləşdirilməsi ilə bağlı fəaliyyət təqdim olunub. "Doing Business"in əsas fəlsəfəsi və qiymətləndirmə meyarı ondan ibarətdir ki, xidmətlərin alınması üçün tələb edilən günlərin, prosedurların sayında azalmalar olsun, iş adamları, vətəndaşlar daha az xərc və xidmətlərdən faydalana və yararlana bilsinlər. "Doing Business"in 11 indikatoru üzrə həm ötən il, həm də bu il həyata keçirilən islahatlara diqqət yetirsək görərik ki, biznesin qeydiyyatı, tikinti üçün icazələrin alınması, elektrik təchizatına qoşulma, əmlakın qeydiyyatı ilə bağlı prosedurların sayında ciddi azalmalar müşahidə olunub. Bir neçə gün öncə əmlakın qeydiyyatı ilə bağlı çıxarışların elektronlaşdırılması həyata keçirilib. Azərbaycan əmlakın qeydiyyatına görə dünyada 17-cidir. Bu, ilk iyirmiliyə daxil olmaq deməkdir. Güman olunur ki, son islahatlardan sonra bu indikator üzrə mövqeyimiz daha da yaxşılaşacaq. Eyni zamanda, tikintiyə icazələrin verilməsi, elektrik enerjisindən istifadə ilə bağlı tələb edilən günlərin və prosedurların sayında azalmalar var. Bu il yanvarın 1-dən Vergi Məcəlləsində edilmiş dəyişikliklər vergi yükünün azalmasına gətirib çıxardı. Bu bizim mövqeyimizə və "Doing Business 2020" hesabatında qiymətləndirməyə birbaşa təsir göstərir. Azərbaycanda idxal və ixrac üçün tələb edilən günlərin və prosedurların sayında da azalmalar var. Çünki "Yaşıl dəhliz" buraxılış sisteminin tətbiqi günlərin sayının azalmasına səbəb oldu". Ekspert vurğulayır ki, aparılan islahatlar Azərbaycanın əsas istiqamətlər üzrə "Doing Business 2020"də mövqeyinin daha da yaxşılaşmasına gətirib çıxara bilər: "İslahatların aparılması növbəti illərdə ölkəmizin hesabatda ilk 20-liyə daxil olmasına şərait yaradacaq. İslahatların dərinləşməsi fonunda Azərbaycan, hesabata əsasən, qarşıdakı illərdə dünyada ən yaxşı investisiya mühitinə malik olan 20 ölkədən biri seçilə bilər. Məqsəd beynəlxalq hesabatlarda mövqeyimizin yaxşılaşdırılması ilə yanaşı, iş adamlarının daha yaxşı biznes mühitindən faydalana, xidmətlərdən elektron qaydada yararlana bilmələridir. "Doing Business 2020" hesabatında mövqeyimizin daha da yaxşılaşması Azərbaycanda aparılan islahatlara beynəlxalq qiymət kimi də xarakterizə olunur". Bütün bunlar beynəlxalq miqyasda Azərbaycanın nüfuzunu yüksəltməklə yanaşı, ölkəni iqtisadi cəhətdən daha qüdrətli dövlətə də çevirir.

***Nahid SALAYEV***

**ABŞ-ın Xarici siyasət şurasının baş elmi əməkdaşı Stiven Blank "Vaşinqton Tayms" qəzetində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistanın, habelə erməni lobbisinin mövqeyinin tənqid olunduğu analitik yazı qələmə alıb. Münaqişənin tarixini, onun həlli yollarını istiqamətində geniş araşdırma təqdim edən müəllif bildirir ki, Ermənistan ona qonşu dövlətlərin malik olduğu nailiyyətlərdən və tərəqqidən məhrum qalan, dünyada ən kasıb ölkələrdən biridir:**

# Vaşinqton analitiklərinin şok qənaəti - Ermənistan məhv olacaq...



"Nə qədər dəstəklənirsə-dəstəklənsin, Ermənistan ABŞ-ın nə dostu, nə də müttəfiqi sayılır və onunla eyni dəyərləri paylaşmır. Müharibə nəticəsində Ermənistan Rusiyanın vassalına çevrilərək dünya arenasında Kremli dəstəkləyir və İranla sıx əlaqələr qurmaqdadır. Bu böhranlar 2018-ci ildə iri iqtisadi və demokratik islahatlar vəd edən inqilabı doğurdu. Üstündən bir il keçməsinə rəğmən, bu vədlər hələ də həyata keçirilməyib. Ermənistan və onun baş naziri Nikol Paşinyan islahatların, hətta Moskva və Tehranın cəngindən qurtulmağın ilkin şərti sayılan sülh üçün effektiv strategiya hazırlaya, habelə gərəkli demokratik islahatları həyata keçirə, iqtisadi böyüməni stimullaşdıra bilməyib.

Ermənistan hələ də Dağlıq Qarabağ nümayəndələrinin müstəqil siyasi qurum kimi danışıqlarda iştirakında israr etməkdədir. Bu tələb şübhəli şəkildə Erməni Milli Komitəsinin mövqeyinə olduqca yaxın görünməkdədir.

## *Qabil Hüseynli: "Ermənistan və onun rəhbərliyi bu cür neytral yanaşmalardan ciddi nəticələr çıxarıb doğru addımlar atmalıdır"*

Belə bir mövqe danışıqlarda nəticə əldə olunmasını əvvəlcədən heçə endirir.

Bundan əlavə, bu yaxınlarda Ermənistan müdafiə naziri David Tonoyanın "müharibə və yeni ərazilər ələ keçirmək" barədə çağırışları onsuz da kövrək sayılan sülh prosesinə daha çox zərər vurur. Belə bəyanatlar müharibənin yenidən başlanmasına təkan verə bilər ki, buradan Ermənistanın qalib çıxacağı şübhə doğurur. Bütün bunlar Ermənistan üçün böyük bədbəxtliklərə və iqtisadi fəlakətə gətirib çıxaracaq. Təbii ki, bundan sonra demokratiya, tərəqqi, əhalinin sayının azalmasının qarşısının alınmasından danışmaq mümkün olmayacaq. Ermənistan həqiqətən faydalı nəticələr əldə etmək istəyirsə, daxili tərəqqinin ilkin şərti sayılan, münaqişənin iki tərəf üçün məqbul hesab olunan həlli yoluna razı olmalı və Erməni Milli Komitəsi kimi alovlu millətçi lobbilərin fəaliyyətini ram etməlidir".

Göründüyü kimi, hətta ABŞ analitikləri belə, Ermənistanın çıxılmaz durumda olduğu qənaətinə gəlirlər. Hətta iddia edilir ki, Ermənistanın tutduğu qeyri-konstruktiv yol regionda müharibəni alovlandıra bilər ki, burdan da Ermənistanın qalib çıxacağı şübhə doğurur.

Ermənistanın acınacaqlı duruma yuvarlandığına dair beynəlxalq dairələrin də gəldiyi qənaətdən hansı nəticələri çıxarmaq olar?

**Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, beynəlxalq müşahidəçilərin, analitiklərin bu qənaətə gəlməsi üçün ciddi əsaslar var:** "Çünki Ermənistan tərəfindən hədsiz dərəcədə "rəngarəng" fikirlər səsləndirilir. Onlar bir tərəfdən sülhü təşviq etdiyini deyirlər, digər tərəfdən isə açıq müharibə çağırışları edirlər. Məsələn, Paşinyanın həyat yoldaşı ABŞ-da çıxış edir və deyir ki, müharibə başlasa, oğlu ilə birlikdə əlində avtomat tutub cəbhəyə gedəcək. İndi gəl, bu ifadədəki məntiqi aç və bu qadının nə söyləmək istədiyini başa düş. Halbuki, bu qadın erməni qadınları adından sülh platformaları təşkil edir, sülhə çağırışlar edir. O biri tərəfdə isə əlinə silah alıb Azərbaycanın yeni torpaqlarının istilası üçün oğlu ilə birlikdə hücum çəkmək niyyətini açıqlayır. Vyana görüşündən dərhal sonra Ermənistanın müdafiə naziri müharibə bəyanatları verdi, hətta yeni ərazilərdə gözlərinin olduğunu dedi. Sonra Paşinyan dedi ki, düz danışıb, fərqli danışsaydı, onu işdən azad edərdim. Danışıqların sülhə apardığına heç ermənilərin özləri də inanmırlar və savaş risqinin böyük olduğunu düşmən də etiraf edir. Artıq kənardan da görünür ki, Ermənistanın bu mövqeyi münaqişənin həllində müharibə risqini artırmış olur. Azərbaycanın özü də bu variantı istisna etmir. Dəfələrlə bildirilib ki, danışıqlar fayda verməyəcəyi təqdirdə biz öz ərazi bütövlüyümüzü hərbi yolla bərpa etmək haqqına sahibik. Ermənistan bundan da çəkindiyini açıq büruzə verir. Daim Azərbaycanı hərbi ritorikanı artırmaqda günahlandırır. Hər halda, münaqişənin dalana dirənməsi gələcək üçün yaxşı nəsə vəd etmir.

Artıq Azərbaycan cəmiyyətində torpaqlarımızı hərbi yolla azad etmək çağırışları artmağa başlayıb. Sözügedən məqalədə proseslərin gedişi çox aydın şəkildə izah edilib. Soyuqqanlı təhlildən bu nəticə çıxıb ki, müharibə olsa belə, Ermənistan heç nə qazanan deyil. Bunu bizim hərbi güclərimiz arasındakı fərqlər də deyir. Hər halda, Ermənistan və onun rəhbərliyi bu cür neytral yanaşmalardan ciddi nəticələr çıxarıb doğru addımlar atmalıdır".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Qarabağ prosesinə yeni diaqnoz - Paşinyan geri çəkilərək, danışıqları dalana dirəmək istəyir...

**Dağlıq Qarabağ münaqişəsi ilə bağlı real durum işğalçı Ermənistanın mövqelərinin getdikcə daha zəif hala gəldiyini aydın surətdə nümayiş etdirir. Şübhəsiz ki, bunun ümdə səbəbi Azərbaycanın həyata keçirdiyi fəal diplomatik gedişlər, işğalçını təcrid vəziyyətinə salmasıdır. Eyni zamanda, Azərbaycanın beynəlxalq müstəvidə apardığı işlər də öz nəticələrini verməkdə, Ermənistanın işğalçılıq siyasətinə qarşı çıxanların sayı artmaqdadır.**

Bu durumda daha bir maraqlı məqam Qafqazda hadisələrin inkişaf axarına təsir göstərmək iqtidarında olan böyük geosiyasi güclərin də Ermənistanla mövcud münasibətlərinin getdikcə böhrana yuvarlanmasıdır. Rusiya - Ermənistan əlaqələrində artan böhran səviyyəsi qeyd edilənlərin real təsdiqi sayıla bilər. Regionda xüsusi çəkisi olan ABŞ-la da İrəvanın münasibətlərində ciddi çatların yaranması daha açıq müşahidə olunur. Hətta iş o yerə çatıb ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan özü də açıq etiraf edir. "Nezavisimaya qazeta"ya müsahibəsində o, bu fonda ABŞ-ı sərt tənqid etdiyini də açıq vurğulayır: "Ermənistanda ABŞ hakimiyyətini mənim kimi heç bir hökumət tənqid etməyib". "Suriyaya hərbi humanitar yardımın aparılması ilə bağlı Vaşinqton tərəfindən Ermənistanın keçmiş hakimiyyəti indiki iqtidar qədər açıq şəkildə heç vaxt tənqid edilməyib. Siz ABŞ-la münasibətləri necə tarazlaşdırmağı planlaşdırırsınız" sualına cavab olaraq Paşinyan deyib ki, Ermənistan regional və beynəlxalq münasibətlərdən əlahiddə şəkildə mövcud ola bilməz.

Ümumiyyətlə, Ermənistanda baş tutan məlum inqidabdan sonra Paşinyan ABŞ-ın ona qarşı tutduğu mövqedən getdikcə daha çox narazı qalır. Məsələn, o bildirir ki, Amerika Birləşmiş Ştatları Ermənistandakı inqilaba, praktik olaraq, reaksiya verməyib. Erməni mediası yazır ki, əslində, Ermənistandan Suriyaya humanitar missiyanın göndərilməsi haqqında qərardan sonra ABŞ İrəvana çox qəzəblənib. Belə vəziyyətdə Ermənistan-Amerika münasibətləri nəinki inkişaf edir, əksinə, bu əlaqələrin iqtisadi əsaslarını təşkil edən komponentlər təhdid altına düşüb. Paşinyan bu durumda ABŞ-ın tənqid hədəfinə çevrilməsini təbii saydığını vurğulayır. Maraqlıdır ki, Ermənistanda ABŞ-ın tənqid hədəfinə çevrilməsi Vaşinqtonun Qarabağ məsələsində fəallaşdığı bir dövrə təsadüf edir. Xatırladaq ki, ABŞ tərəfi Azərbaycan və Ermənistan xarici işlər nazirlərinə Qarabağ münaqişəsinin həlli ilə bağlı müzakirələri davam etdirmək üçün növbəti görüşü Vaşinqtonda keçirməyi təklif edib. "Lragir" qəzeti yazır ki, ABŞ münaqişənin həllində "Bolton planı"nı işə salmağa hazırlaşır: "Eyni zamanda ABŞ Qarabağ münaqişəsinin nizama salınmasında Moskvaya müstəsna hüquq verməmək niyyətindədir. Aydındır ki, proses dönəmində Paşinyan "Bolton planı"nın reallaşdırılması zamanı hakimiyyətini birinci prezident Levon Ter-Petrosyan kimi itirmək təhlükəsi hiss edib. Ona görə də Paşinyan geriyə çəkilərək, danışıqları dalana dirəməyə çalışır. Amma "Bolton planı"nı həyata keçirmək istəyən ABŞ buna imkan verməyəcək. Bu mənada, Paşinyanın son zamanlar apardığı siyasət böyük optimizm yaratmır. Belə ki, artıq Paşinyanın incə oyun aparıb hakimiyyətdə qalmaqla bərabər, dövləti hərbi konfliktə cəlb etməyəcəyi inandırıcı görünmür. Özü də Paşinyanın vaxtı çox deyil. Azərbaycan yaranan yeni reallıqlardan istifadə edib nəticə almaq istəyir". Hesab edilir ki, ABŞ Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqlarda substantiv mərhələnin başlanmasına çalışaraq İrəvanı güzəştə getməyə məcbur edə bilər. ABŞ-da hesab edilir ki,

Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq üçün beynəlxalq hüquq prinsipləri işə salınmalı, ərazi bütövlüyü kimi vacib məqama xələl gəlməməlidir. Ermənistanın bütün bunlara hər hansı formada müqaviməti isə düşmən tərəf üçün istənilən nəticəni vermir. Hətta güclü erməni lobbisi də bu prosesdə acizlik nümayiş etdirir. Xüsusən də məlum həqiqətdir ki, prezident Donald Tramp Ağ Evə gəldikdən sonra erməni lobbisinin ABŞ-ın xarici siyasətinə təsiri əhəmiyyətli dərəcədə azalıb. Erməni diasporunun artıq Vaşinqtonun Dağlıq Qarabağ münaqişəsi ilə bağlı "ermənipərəst" mövqe nümayiş etdirməsi üçün fəaliyyəti praktik olaraq nəticə vermir. Bu diasporun maliyyə və siyasi vasitələrlə lobbiçiliyinin ABŞ-ın Cənubi Qafqaz siyasətinə mənfi təsir göstərməsi artıq keçmişdə qalıb. Əksinə, ABŞ Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü onun beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində daha fəal dəstəkləyir. Məhz bütün bunlar, eləcə də gözlənilən iqtisadi yardımların edilməməsi indi Ermənistanı ABŞ-dan narazı salır. Amerikalı politoloq Piter Teys isə məsələnin başqa bir tərəfinə nəzər salaraq vurğulayır ki, Vaşinqton Qarabağ münaqişəsinin yenidən alovlanmasını istəmir. Elə bu səbəbdən də Ermənistanın konfliktin həlli üçün əməli addımlar atmasını istəyir. Onun sözlərinə görə, Ermənistan silahlı qüvvələri Azərbaycanın ərazilərindən tamamilə çıxarılmadan və bu torpaqlardan sürgün edilmiş azərbaycanlıların evlərinə geri dönməsi təşkil edilmədən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması mümkün deyil. Bunu isə ABŞ-da da yaxşı başa düşürlər: "Digər tərəfdən, sülh Ermənistanın öz inkiaşfı üçün də vacibdir. Savaşda Azərbaycanla ayaqlaşmaq indiki zəif Ermənistan üçün çox çətindir. Son 30 il ərzində Ermənistan ordusu yüksək taktiki hazırlıq və yüksək səviyyədə döyüş ruhu nümayiş etdirməyib. Ermənistan cəmiyyətinin kədərli olması, çox sayda gəncin daha yaxşı həyat yaşamaq üçün Ermənistanı tərk etməsi, erməni əsgərlərin ac qalması, hərbi təchizat çatışmazlığı yaşaması da heç kimə sirr deyil. Bunları İrəvan mütləq nəzərə almalı, Azərbaycanla sülh əldə etməyə çalışmalıdır. ABŞ-ın da istəyi məhz bölgədə sülhün olmasıdır".

Beləliklə, yuxarıda qeyd edilənlərdən bəlli olur ki, ABŞ-ın Qarabağ məsələsində mövqeyi reallığı əks etdirir və bu, Ermənistandan fərqli olaraq, Azərbaycanın istəkləri ilə uzlaşır. Regionda böyük təsir gücünə malik Rusiya da getdikcə Ermənistandan uzaqlaşır və bunun da Qarabağ konfliktinə təsiri qaçılmaz sayılır. Xatırladaq ki, Rusiyanın Ermənistana etibar etməməsini Nikol Paşinyan özü də açıq etiraf edir: "Rusiyada komandamızın üzvlərinə inamsızlıq var. Mən açıq-aydın danışmaq istəyirəm. Rusiya elitasının Ermənistanda baş verənlərlə bağlı problemləri var. Komandamızın üzvləri keçmişdə siyasi müxalifətdə olublar. Vətəndaş cəmiyyətini təmsil ediblər. Bu adamlar keçmiş hakimiyyətlə əməkdaşlıq etmək istəməyiblər. Vətəndaş cəmiyyəti sektoru Rusiyanı sevməyən beynəlxalq təşkilatlar tərəfindən maliyyələşdırilib. Bu səbəbdən də bizə etimadsızlıq var". Ermənistan Respublika Partiyasının sözçüsü Eduard Şarmazanov isə ABŞ və Rusiyanın ölkəsindən uzaqlaşmasını mövcud hakimiyyətin xətası kimi təqdim edir: "Ötən ilin aprelində baş verənlərin acı nəticələrini artıq xarici siyasətdə də görürük. Ötən il baş verənlər yalan, saxtakarlıq, təhdid, şantaj və nifrətlə hakimiyyətin ələ keçirilməsi ilə nəticələnən çevrilişdir". Şarmazanovun sözlərinə görə, son bir il yalnız onun üçün deyil, bütün ictimaiyyət üçün məyusluq ili olub: "İlk vaxtdan etibarən Paşinyanın baş nazir olmasının əleyhinə olmuşam. Apreldə baş verənlər inqilab deyil, yalan, saxtakarlıq, təhdid, şantaj və nifrətlə hakimiyyətin ələ keçirilməsi ilə nəticələnən çevrilişdir. Hazırda Paşinyan verdiyi vədləri nəinki yerinə yetirməyib, hətta iflasa uğrayıb". Şarmazanov qeyd edib ki, gün gələcək, bütün küçəyə çıxanlar aldadıldıqlarına görə məyus olacaqlar: "Bir ölkənin baş naziri qalxıb deyirsə, ölkədə xarici dövlətlərin agentləri var və daha sonra agentlərin adlarını çəkməkdən qorxursa, bu şəxsin baş nazir olma haqqı varmı? Yaxud baş nazir yalan danışır. Gün gələcək, bütün küçəyə çıxanlar aldadıldıqlarına görə məyus olacaqlar. Vəzifəsinin öhdəsindən gələ bilməyən baş nazir Ermənistanı təklənmiş vəziyyətə salıb, rəqib Azərbaycan isə bundan məharətlə istifadə edir".

Azərbaycanın indiki vəziyyətdə uğurlu gedişlərini rusiyalı ekspert Yevgeni Mixailov da təsdiq edir. O, Azərbaycanın son illər sabit və müsbət mənada ardıcıl xarici siyasət qurduğunu vurğulayır: "Bu siyasət istər yaxın ölkələrlə mehriban qonşuluq münasibətlərini inkişaf etdirməyə, istərsə də bütün dünyada ölkənin mövqelərini gücləndirməyə yönəlib. Müxtəlif ölkələrin liderlərilə fəal şəkildə aparılan danışıqlar Azərbaycanın iqtisadi və siyasi maraqlarının coğrafi mənada genişlənməsinə dəlalət edir". Onun fikrincə, Azərbaycan rəhbərliyi bu gün, ilk növbədə, ölkənin təhlükəsizliyinə və ərazi bütövlüyünün bərpasına yönələn siyasət yeridir:

"Təhlükəsizlik məsələsinə gəlincə, bu gün qarşımıza güclü, yüksək döyüş qabiliyyətli, mükəmməl silahlanmış ordusu ilə yeni bir Azərbaycan çıxır. İqtisadi cəhətdən bir çox ölkə ilə müqayisələr apararaq bu gün Azərbaycan əhalisinin özünü arxayın və kifayət qədər təminatlı hiss etdiyini deyə bilərik. Bunu respublikaya səfərlərim zamanı şəxsən gördüklərimə əsasən təsdiqləyə bilərəm. Azərbaycan ordusunun getdikcə güclənməsi və yaxşı qurulan beynəlxalq əlaqələr, təbii ki, Qarabağ məsələsində Bakıya daha böyük üstünlüklər qazandırır".

Bütün bunlar bir daha nümayiş etdirir ki, Azərbaycan həm özü kifayət qədər güclü dövlətə çevrilib, həm də aparıcı ölkələrlə yüksək səviyyədə münasibətlər qurub. İşğalçı Ermənistanda isə bu məsələdə tamam əks vəziyyət qeydə alınır. Məhz bu hal, ekspertlərin fikrincə, Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini əhəmiyyətli dərəcədə tezləşdirən məqamlar sırasında yer alır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# 400-dən çox qanunsuz çoxmərtəbəli yaşayış binasının hələlik 14-ü sənədləşib - Prezidentin sərəncamı niyə zəif icra olunur...

**Prezident İlham Əliyevin "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Sərəncamından artıq iki aydan çox vaxt keçir. Qeyd edək ki, ölkə başçısı sözügedən məsələ ilə bağlı bu ilin 19 fevralında sərəncam imzalayıb.**

Ancaq sərəncamdan iki aydan çox vaxt keçsə də, cəmi 14 binaya dair sənədlər komplektləşdirilərək, bu binaların istismara hazır olması barədə rəy tərtib edilib. Həmin rəy aidiyyəti üzrə Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim olunub.

"Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə bağlı görülmüş işlərin, habelə qarşıya çıxan problemlərin müzakirəsi mövzusunda müşavirədə də bu haqda məlumat verilib. Yüksək çinli məmurların, o cümlədən, komitə sədrlərinin iştirak etdiyi müşavirədə çıxış edən fövqəladə hallar naziri Kəmaləddin Heydərov bildirib ki, ötən müddət ərzində aidiyyəti qurumlar tərəfindən lazımi işlər görülüb və bu proses fasiləsiz olaraq davam etdirilir.

O da məlum olub ki, hazırda ölkə üzrə istismara qəbul olunmamış çoxmənzilli yaşayış binalarının sayı 434 ünvan təşkil edir ki, bunun da 381-i Bakı şəhərindədir. Onu da qeyd edək ki, məlum sərəncamın 400-dək yaşayış kompleksinə şamil olunacağı, 50 minədək mənzili, 10 minlərlə ailəni əhatə edəcəyi bildirilir. Sərəncam 2019-cu il yanvarın 1-dək tikilən, tam təhvil verilən, istismara qəbul olunmayan və faktiki olaraq, insanların yaşadıqları binalara şamil edilir.

Məlumdur ki, müvafiq sərəncamın verilməsi vətəndaşlarda çoxsaylı problemin həllini tapacağına ümid yaradıb. Çünki binaların istismarına icazənin verilməməsindən daha çox əziyyət çəkən sahibkarlar deyil, həmin binalarda yaşayan sakinlərdir. Bu məsələ mənzillərə mülkiyyət hüququnun verilməməsi, ev alqı-satqısında əlavə ödənişlərin tələb olunması, mənzil-tikinti kooperativlərinin qanunsuzluqlarına rəvac verirdi.

Maraqlıdır, sərəncamın icrası niyə ləng gedir? 400-dək belə bina olduğu halda, niyə indiyə qədər 14 binanın istismara hazır olduğu barədə rəy verilib?

**Məsələyə aydınlıq gətirən əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı bunu bir sıra amillərlə əlaqələndirdi:** "Prezidentin sərəncamına əsasən, Fövqəladə Hallar Nazirliyinə verilən 2 aylıq müddət aprelin 19-da bitib. Ancaq nəzərə almaq lazımdır ki, bu iki ayda qeyri-iş günləri də var. Yəni o hesabla götürsək, müddət bu ayın axırında bitir. Bundan başqa, bir həftə müddətində sənədlərə Dövlət Şəhərsalma və Arxitektura Komitəsində baxılır. İlkin mərhələdə sənədlər qəbul olunur,

***Ramil Osmanlı:*** *"Bina istismara yararlıdırsa, o zaman binanın istismar aktının verilməsində heç bir problem olmamalıdır"*





*"MTK-lardan binaların sənədlərinin göndərilməsində gecikmələrə yol verilir"*

baxılır və sonra rəy verilir. Deməyim odur ki, ilk baxışdan 14 binaya istismara hazır olmaqla bağlı rəyin verilməsi az görünə bilər. Əsas odur ki, proses başlayıb. Hesab edirəm ki, təxminən 10-15 gün ərzində daha çox bina barədə rəy veriləcəyi gözlənir. Çünki artıq nazirliyə verilən müddət bitmək üzrədir. Onu da nəzərə almaq lazımdır ki, mənzil-tikinti kooperativlərindən binaların sənədlərinin göndərilməsində gecikmələrə yol verilir. Problem ondadır ki, elə MTK-lar var, bu gün də sənədləri FHN-ə təqdim etməyib.

**Müxtəlif səbəblər gətirib prosesi gecikdirirlər. Belə problemlər də var. May ayının sonuna qədər bütün binalar olmasa da, hər halda, əksəriyyətinin sənədləşmə problemi həll ediləcək. Çünki cənab Prezidentin sərəncamında qoyulan məsələnin əsas mahiyyəti ondan ibarətdir ki, bina istismara yararlıdırsa, o zaman binanın istismar aktının verilməsində heç bir problem olmamalıdır".**

***Vidadi ORDAHALLI***

# "İnşaatçı"lardakı "Bonita" mağazasının işçiləri erməni mahnısına görə səhvini etiraf etdi, lakin...

**Sosial şəbəkələrdə yayılan məlumata görə, "İnşaatçılar" metrostansiyasının yaxınlığında fəaliyyət göstərən "Bonita" adlı geyim mağazasında erməni mahnısı səsləndirilib. Həmin an lentə alınan video sosial şəbəkələrdə yerləşdirilib.**




*"Hər birimiz azərbaycanlıyıq və vətəndaşlarımıza faydalı olmağa çalışırıq, həmin mahnının səsləndirilməsini isə heç kim istəməzdi"*

***"Bonita" geyim mağazası:*** *"Erməni dilini bilmədiyimiz üçün, yenilənən mahnının erməni mahnısı olduğunu anlamamışıq"*

"Bonita"da baş verən hadisəni sosial şəbəkə istifadəçisi, jurnalist Könül Aypara lentə alıb.

Jurnalist bildirib ki, həmin vaxt mağaza əməkdaşlarına irad bildirib. Ancaq onlar müştərinin etirazına əhəmiyyət verməyiblər, hətta onun iradına kobud reaksiya olub. Belə ki, "Bonita"nın əməkdaşları "Onsuz da keyfimiz yoxdur, siz də qanımızı qaraldırsınız" deyərək, jurnalistə cavab veriblər.

Qeyd edək ki, mağazada səsləndirilən "Mi Gna" adlı mahnını Sako adlı erməni müğənni ifa edir. Bəstənin sözləri də Artak Aramyana məxsusdur.

Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində yüzlərlə vətəndaşımızın düşmən tərəfindən əsir götürüldüyü, öldürüldüyü halda, dükanda erməni mahnısının səsləndirilməsi yolverilməzdir.

Məsələni dəqiqləşdirmək üçün "Bonita" geyim mağazalar şəbəkəsi ilə əlaqə saxladıq.

"Bonita" geyim mağazasından bizə bildirildi ki, dükanda anlaşılmazlıq olub: "Mağazada hər gün səhər saat 09:00-dan axşam 21:00-dək "YouTube" portalı vasitəsilə mahnılar səsləndirilir və avtomatik olaraq yenilənir. Erməni dilini bilmədiyimiz üçün, yenilənən mahnının erməni mahnısı olduğunu anlamamışıq. Bu mahnıları "YouTube" özü tənzimləyir. Burada anlaşılmazlıq yaranıb. Hər birimiz azərbaycanlıyıq və vətəndaşlarımıza faydalı olmağa çalışırıq. Həmin mahnının səsləndirilməsini isə heç kim istəməzdi".

Mağaza rəsmisi onu da vurğuladı ki, erməni mahnısı səslənməsinə etiraz edənin iradına rəğmən, mahnını dəyişdirməyən əməkdaş işdən çıxarıla bilər: **"Əgər xanım mahnının dəyişdirilməsini istəyibsə və əməkdaşımız bunu etməyibsə, həmin şəxsin işinə son verməyə hazırıq. Çünki vətənpərvərlik ruhu oyanmayan biri kollektivimizdə ola bilməz".**

***Günel CƏLİLOVA***

# Qızılağac qoruğunda fəlakət - Coğrafiya İnstitutu belə deyir, Ekologiya Nazirliyi "yoxlanılmalıdır" deyir...

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Coğrafiya İnstitutu Kiçik Qızılağac körfəzində tədqiqat işləri həyata keçirib. Tədqiqat zamanı sözügedən ərazidə ekoloji vəziyyətin çox pis halda olduğu müəyyən edilib.**

*"Ora kifayət qədər ciddi mühafizə olunan ərazidir, ona görə də kimsə gəlib o əraziyə plastik butulkalar, digər növ tullantılar atmır"*

***Hikmət Əlizadə:** "Coğrafiya İnstitutunun mütəxəssislərinin apardıqları tədqiqatların səhihliyini həm Ekologiya və Təbii Sərvətlər Nazirliyi, eləcə də digər sahə üzrə aidiyyəti qurumların bir daha araşdırmasına ehtiyac var"*



AMEA-nın Coğrafiya İnstitutunun əməkdaşı, dosent Zabit Allahverdiyev Qızılağac körfəzində çöl tədqiqat işlərinin nəticələri barəsində danışarkən qeyd edib ki, Kiçik və Böyük Qızılağac körfəzlərində əvvəlcədən təyin edilmiş nöqtələrdə dərinlik üzrə ölçmə işləri aparılıb, səth suyundan və dib çöküntülərindən nümunələr götürülüb, axın sürətinin, səth suyunun və havanın temperaturu ölçülüb, kiçik və böyük körfəzlər arasındakı mübadilə kanallarının (su axıdılan, qəza və balıq keçən) hazırkı vəziyyəti və dənizin səviyyə durumu haqqında məlumatlar toplanıb: "Aparılan müşahidələr göstərir ki, antropogen təsirlər nəticəsində Kiçik Qızılağac körfəzinin ekoloji vəziyyəti çox pis hala düşüb, sahil zonaları plastik və digər tullantılarla zibilləndirilib. Dəniz səviyyəsinin aşağı düşməsi nəticəsində sahil xətti 100-200 m məsafədə formalaşıb. Materiklə adanı birləşdirən bənd, Kiçik Qızılağacla dənizi birləşdirən qəza kanalı və balıqların kiçik körfəzdə kürü tökməsi üçün istifadə olunan kanal yaxşı və işlək vəziyyətdədir. Qızılağac körfəzi ərazisində havanın çoxillik temperaturu (1991-2016-cı illər üçün), (14,8 dərəcə) normadan (1961-1990-cı illər), (14,1 dərəcə) 0,7 dərəcə çoxdur. Ərazidə yağıntıların artması müşahidə edilir. Belə ki, norma 1067 olduğu halda, 1991-2016-cı illərdə atmosfer çöküntülərinin orta illik göstəricisi normadan (1115 mm) çox müşahidə edilib".

**Böyük Qızılağac körfəzinin ekoloji vəziyyətinin pis halda olması və sahil zonalarının plastik və digər tullantılarla zibillənməsinə münasibət bildirən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentinin direktoru Hikmət Əlizadə "Bakı-Xəbər"ə açıqlamasında dedi ki, Coğrafiya İnstitutunun aktuallaşdırdığı məsələnin araşdırılmasına ehtiyac var.** "Məsələ nədən ibarətdir? Əvvəla Coğrafiya İnstitutunun mütəxəssislərinin apardıqları tədqiqatların səhihliyini həm Ekologiya və Təbii Sərvətlər Nazirliyi, eləcə də digər sahə üzrə aidiyyəti qurumların bir daha araşdırmasına ehtiyac var. Çünki həmin ərazi az qala ekoloji fəlakət zonası kimi təqdim edilir. Bu məlumatın səhihliyi yoxlanılmalıdır. Ancaq reallıq ondan ibarətdir ki, üç çay - Viləş çay, Boradi çay və Qumbaşı çay birləşərək sonda gəlib Kiçik Qızılağac körfəzinə tökülür. Gözünüzün qarşısına gətirin ki, Masallı rayonunun bütün ərazisi boyu əksər kənd və qəsəbələrdən keçməklə bu çaylar qovuşaraq Kiçik və Böyük Qızılağac körfəzlərinə tökülür. Kiçik Qızılağac körfəzinə tökülən həmin çaylar özü ilə plastik və digər tullantılar da gətirir. Çünki müəyyən insanlar çaylara tullantılar atırlar. Yəni körfəz ərazisində heç kəs ora tullantı atmır. Əvvəl bura qoruq idi, indi isə Milli Parkdır. Bu gün ora kifayət qədər ciddi mühafizə olunan ərazidir. Ona görə də kimsə gəlib o əraziyə plastik butulkalar, digər növ tullantılar atmır. Baxmayaraq ki, zibil, məişət tullantısı təmizləmək qoruq əməkdaşlarının vəzifəsi deyil, ancaq, ən azından, hər həftə xüsusən də Kiçik Qızılağac körfəzinin ərazisində iməcliklər keçirirlər. Onlar çayların mütəmadi olaraq gətirdiyi plastik tullantıları yığırlar.

**Bu baxımdan, Coğrafiya İnstitutunun, prinsip etibarilə, verdiyi məlumat düzgündür" - deyə bildirən H.Əlizadənin sözlərinə görə, ancaq həmin ərazidə suyun çirkliliyinin hansı vəziyyətdə olmasının öyrənilməsi üçün sahə üzrə aidiyyəti qurumlar tərəfindən tədqiqatlar aparıla bilər.**

*İradə SARIYEVA*

# Paytaxt və respublika yollarında yük maşınları təhlükə və antisanitariya mənbələrinə çevrilir...

**Azərbaycanda ağırtonnajlı avtomobillərin yüklərinin müəyyən edilmiş standartlara cavab verməməsi gündəmin əsas mövzularından biri olaraq qalmaqdadır. Bu cür avtomobillərə arxadan gələn nəqliyyat vasitələrinə və ya yolun asfalt örtüyünə zərər dəyməməsi üçün həddindən artıq yük yüklənməməli, yükün üzəri qalın əşya ilə örtülməlidir.**



*"...icazə verilən normadan həddindən artıq yükləndiyindən və onların yük hissələri bağlı olmadığından..."*

***Ərşad Hüseynov:** "Ağırtonnajlı avtomobillər yolların tez sıradan çıxmasında müəyyən rol oynayır"*



Hətta ekspertlər yol qəzalarına yük maşınlarının daha çox səbəb olduğunu bildirirlər. Ağırtonnajlı avtomobillərin apardığı qum, çınqıl, mişar daşları yollara tökülərək digər nəqliyyat vasitələrinin qəza törətməsinə səbəb olur. Bu hal daha çox rayonlararası yollarda müşahidə olunur.

Həmin yollarda əksər sürücülər daşıdığı mişar daşı qırıntılarının, qum, çınqılların üzərini bağlamadığı üçün, yükdən çıxan toz-duman ətrafa yayılır. Eyni zamanda, yolda hərəkətdə olan digər nəqliyyat vasitələrinin sərbəst hərəkətinə mane olur, problem yaradır.

Ağırtonnajlı avtomobillər həqiqətən də yolların tez sıradan çıxmasında müəyyən rol oynayırlar. Ən azından ona görə ki, avtomobil yolları layihələndirilərkən və inşa edilərkən müəyyən buraxıla bilən yükə hesablanır.

Amma reallıqda, məsələn, tikinti materialları, daş, sement, çınqıl və s. daşınmasına xidmət edən maşınlar o normaları gözləmirlər. Burada ağırçəkili avtomobillərdən başqa, yol inşaatının texnologiyasına ciddi əməl olunması məsələsi müəyyən qədər sual doğuran bir məqamdır. Həm avtomobil yollarının inşası zamanı texnologiyada buraxıla bilən qüsurlu məqamlar, həm də bəzən qüsurlu inşa olunan yollar ağır avtomobillərlə yüklənib daha tez dağılır. Bu isə dövləti də zərərə salır.

**Yol təhlükəsizliyi məsələləri üzrə ekspert Ərşad Hüseynov vurğuladı ki, Azərbaycan qanunvericiliyində yüklərin daşınması zamanı onların üzərinin örtülməsi birmənalı olaraq göstərilib:** "Əgər yolda hər hansı bir hadisə baş verərsə, bu zaman birbaşa sürücü təqsirkardır. Zərərçəkən avtomobilin icbari sığortası varsa, o zaman ziyanı sığorta ödəyir"

Həmsöhbətimiz onu da vurğuladı ki, ağırtonnajlı yük maşınları nəzərdə tutulmuş, yəni icazə verilən normadan həddindən artıq yükləndiyindən və onların yük hissələri bağlı olmadığından, oradan düşən qum, daş, çınqıl və sair inşaat materialları asfalt örtüyünü çirkləndirir, zədələyir.

Yükü normadan artıq olan maşınların sürücüləri İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinə əsasən cərimələnirlər. Yük hissəsi açıq olan maşınların sürücüləri də müəyyən məbləğdə cəriməyə məruz qalırlar.

*Günel CƏLİLOVA*

# Masallıda supermarketə qurban verilmiş Vətən Müharibəsi abidəsinə görə kənd camaatının etirazı yenidən fəallaşır...

**Masallı rayonunun Qızılavar kəndində, Masallı-Boradigah yolunun sol tərəfində Böyük Vətən Müharibəsində həlak olanların xatirəsinə ucaldılan möhtəşəm abidənin dağıdılması ilə bağlı məlumat vermişdik. Həmin kəndin sakinləri yenidən redaksiyamızla əlaqə saxlayıblar. Onlar bildirirlər ki, prosesdə heç bir irəliləyiş yoxdur, rayon rəhbərliyi baş verən vandallıq hərəkətini ört-basdır etməklə məşğuldur.**










Xatırladaq ki, biz bu istiqamətdə apardığımız araşdırma nəticəsində bir çox qurumla əlaqə saxlayıb, həmin tarixi abidənin niyə sökülməsilə maraqlanmışıq. Ancaq təəssüflər olsun ki, əlaqə saxladığımız bütün qurumların rəsmiləri, əslində, bu ciddi hadisə ilə bağlı yaxalarını kənara çəkməyə çalışıblar.

Məsələn, Masallı Rayon İcra Hakimiyyəti başçısının müavini Nəsir Muxtarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirib ki, onlarda belə bir məlumat yoxdur: "Bu cür abidələr Mədəniyyət Nazirliyinin balansında olur və onlara heç kim toxuna bilməz... Mən icra nümayəndəsi və bələdiyyə ilə məsələni dəqiqləşdirdim. Həmin abidəni əvəz edən yenisini tikəndən sonra köhnəni söküblər. Hətta yeni abidənin açılışı da olub. Bu, kənd əhalisinin tələbi ilə baş tutub. Yeni abidənin açılışı ilə bağlı fotolar da var".

Çox maraqlıdır ki, ucaldıldığı iddia edilən yeni abidə köhnənin yerində tikilməyib. Bu hərəkətə etiraz əlaməti olaraq, bəzi kənd sakinləri hüquq-mühafizə orqanlarına müraciət ediblər. Həmin abidənin sökülməsinə 71 saylı Masallı kənd seçki dairəsinin sədri İlkin Əzizovun rəhbərlik etdiyi deyilir.

Mədəniyyət Nazirliyindən isə bizə deyiblər ki, bu işlərlə qurum yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti məşğul olur. Həmin xidmətin ictimaiyyətlə əlaqələrin tənzimlənməsinə məsul olan əməkdaşı Fariz Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında bildirib ki, bu mövzu ona tanışdır: "Sizin ictimailəşdirmənizdən əvvəl vətəndaşlar müxtəlif qurumlara, həmçinin, bizə şikayət ediblər. Məndə olan məlumata görə, hazırda bu iş Masallı Rayon Prokurorluğunda araşdırılır. Mən şəxsən bu məsələ ilə maraqlandım. Nəzərinizə çatdırım ki, Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı ilə tarixi abidələrin tam siyahısı tərtib edilib. Həmin siyahıya 6308 abidənin adı düşüb. Sizin barəsində bəhs etdiyiniz abidə həmin siyahıya düşməyib. Bu səbəbdən də onun mühafizəsi ilə biz yox, müvafiq icra hakimiyyəti məşğul olur. Bu heç də ona əsas vermir ki, hansısa abidə sökülsün. Yəqin ki, araşdırıldıqdan sonra bu məsələyə lazımi qiymət veriləcək".

Qeyd edək ki, bizim ictimailəşdirdiyimiz bu mövzu cəmiyyətdə ciddi narazılıqla qarşılanıb. Sosial şəbəkələrdə geniş müzakirəyə səbəb olan bu hərəkətlə bağlı hətta bəzi sol təmayüllü siyasi partiyalar da etiraz bəyanatları veriblər.

Bizimlə yenidən əlaqə saxlayan həmin kəndin bir neçə sakini bildiriblər ki, bu hadisə kənddə böyük narazılığa səbəb olub. Həmin kəndin sakini Əsədov Ağaddin Cəmiyyət oğlu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, onların şikayət etmədiyi instansiya qalmayıb: "Sizi inandırım ki, kəndimizin bəzi sakinləri rayon rəhbərliyinin bu məsələyə laqeyd yanaşması səbəbindən Rusiya mətbuatına üz tutmaq istəyirdilər. Onları bu yoldan çəkindirdik və izah etdik ki, bizim səsimiz ölkə rəhbərliyinə çatsa, mütləq tədbir görüləcək. Sizə dərin təşəkkür edirik ki, bu məsələni ictimailəşdirirsiniz. Bu hadisə hamımıza bir təhqirdir. Təkcə bizim kənddən Böyük Vətən Müharibəsində 106 nəfər həlak olub. Məhz onların xatirəsini əbədiləşdirmək üçün bu abidə qoyulmuşdu. Bu ilin aprel ayının 8-dən 9-na keçən gecə həmin abidə ekskavatorla sökülüb, yüklənib "KamAZ" markalı maşına. Sonra aparılıb kəndin başqa bir hissəsinə xəndəyə tökülüb, üstünü də torpaqlayıblar. Səhər biz kəndin mərkəzinə çıxanda gördük ki, abidə yoxdur. Bələdiyyə sədri və ərazi icra nümayəndəsindən öyrəndik ki, onların bu işdən xəbərləri yoxdur. Bunun oğurluq və ya xuliqanlıq niyyətilə edildiyini aydınlaşdırmaq üçün 102 xidmətinə zəng etdik. Bir saat sonra kəndə polis tədqiqatçısı gəldi. Məni soruşdular. Çünki zəngi mən etmişdim. Tədqiqatçı mənə dedi ki, abidə Rayon İcra Hakimiyyəti başçısının qərarı ilə sökülüb və təmirə aparılıb. Bildirdim ki, təmirə aparılıbsa, onda torpağın altına niyə basdırılıb?"

Kənd sakininin sözlərinə görə, polis kənara çəkilib telefonla danışandan sonra ona deyib ki, narahat olmayın, abidənin yerində yenisi tikiləcək: "Kənd sakinlərindən abidənin kim tərəfindən söküldüyünü görən olub. Həmin yoldaşın özü də sizinlə danışacaq. Abidənin sökülməsinə bilavasitə rəhbərliyi edən şəxs 71 saylı Masallı kənd seçki dairəsinin sədri Əzizov İlkin Ədalət oğludur. Onun marağı bundan ibarətdir ki, abidənin ətrafında, yolun kənarında 3-4 sot torpağı ələ keçirib, orada ya ticarət, ya da iaşə obyekti tikdirsin".

- Bizə İcra Hakimiyyətindən bildirdilər ki, həmin abidənin əvəzinə kənddə başqasını tikiblər. Bu düzdür?

- Xeyr, həmin abidə torpağa basdırılıb. Sadəcə, klubun həyətində dalda bir yerdə guya həmin abidəni əvəz edən nəsə quraşdırıblar. Həmin fotonu sizə göndərirəm. Bizim Qarabağ müharibəsində həlak olan iki şəhid balamız da var. Onlara qoyulan xatirə löhvəsi ilə bunu eyniləşdiriblər. Axı bu iki hadisə arasında xeyli fərq var. Hər halda, müstəqillik şəhidlərimizlə, Böyük Vətən Müharibəsində öldürülənlərin xatirəsini bir tikilidə əbədiləşdirmək düz deyil. Şəkilə baxın. 1941-1945-ci illər müharibəsində həlak olanların siyahısı yazılan löhvənin başına Türkiyənin bayrağını vurublar. Türkiyənin həmin hadisələrə hansı aidiyyəti var? Həmin dəqiqə görünür ki, etdikləri əməli ört-basdır etmək üçün tələsik addımlar atıblar.

- Sizin şikayətinizə baxılmırsa, bundan sonra hansı addımları atmağı planlaşdırırsınız?

- Bizim yeganə istəyimiz ədalətin bərpa olunmasıdır. Həmin abidə öz yerində tikilsin. Çünki ora baxımlı və hər kəsin görə biləcəyi məkandır. Bunlar yerini dəyişməyi zəruri sayırlarsa, niyə həmin abidəni demontaj edib başqa yerdə quraşdırmadılar? Deməli, məqsəd tamamilə başqadır. Bilirdilər ki, kənd sakinləri buna imkan verməzdi. Ona görə də gecə ilə bu vandallığı törətdilər ki, kimsə görməsin.

- Bu məsələ ilə bağlı kəndin ümumi rəyi necədir?

- Hamı qəzəbindən boğulur. Elə adamlar var ki, qorxusundan danışa bilmir. Deyirlər ki, imza toplanıb. Həmin imza atan 10-15 nəfərin hamısının zəif yerləri var. Təzyiq edildiyindən, imza atıblar. İmza atanların hamısı ilə bir-bir görüşdük. Hamısı dedi ki, biz bilməmişik nəyə qol çəkirik. Bəziləri isə dedilər ki, elə bildik abidənin təmiri üçün imza toplayırlar, ona görə imza etdik.

- Son tələbiniz nədən ibarətdir?

- Tariximizin şərəfli parçasını özündə simvolizə edən həmin abidə yerində quraşdırılmalıdır. Amma bununla da iş bitmir. Məlum hərəkəti edən şəxs mütləq qanun qarşısında cəzasını alsın.

Digər kənd sakini Əliyev Malik Xalıq oğlu da "Bakı-Xəbər"ə bildirdi ki, abidənin necə dağıdıldığının canlı şahidi olub: "Abidə ilə üzbəüz çayxana var. Həmin gecə mən orada oturub çay içirdim. İlkin Əzizov ora ekskavator və "KamAZ" gətirdi. Sonra söküb apardılar, başqa yerdə kanala töküb üstünü də torpaqladılar".

Kəndin digər sakini Rəhmanov Rəhman Müslüm oğlu da həmkəndlilərinin dediklərinin həmısının həqiqət olduğunu bildirdi.

*Məhəmmədəli QƏRİBLİ*

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Xatirə Kitabı" Redaksiyası "Bakı-Xəbər" qəzeti ilə birgə layihə əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından yeni bioqrafik sənədli povestin çapına başlayır. Xatırladaq ki, bundan öncə yenə həmin birgə layihə çərçivəsində "Gözlə gələcəyəm" adlı kitab uğurla yekunlaşdırılaraq təqdim edilib. Son illərdə bütün təbiətinin ecazkar koloriti, insanlarının yüksək bəşəri keyfiyyətləri ilə mənə doğmalaşan İsmayıllıyadır yolum yenə. Bu dəfə bu yurdun itkin-şəhidinin axtarışına çıxmışam. Respublika "Xatirə Kitabı"nın redaksiyası və "Bakı-Xəbər" qəzetinin birgə layihəsi əsasında baş redaktor Nəzakət xanım Məmmədovanın bir qədər kövrək, bir qədər duyğusal təklifindən qaynaqlanır bu səfərim. Qarşıda məni və oxucuları hansı yaşantılar gözləyir?!.. Tələsməyin. Sizi bir Vətən övladının kitab-dəftərə sığmayacaq taleyinin bəzi epizodları ilə tanış edəcəyəm. İtkin-şəhid Xəqani Eyvaz oğlu Əkbərovla ilgili, onlu-onsuz tale yolu, axtarışları ilə...**

# Gözlər yoldan yığılarmı...

***"Niyyətin hara, mənzilin də ora".***
**Azərbaycan atalar sözü**

***(On doqquzuncu yazı)***

Qarabağ savaşında - ermənilərin tarixi torpaqlarımıza, hər daş-qayasında keçmişimizin təkzibolunmaz nişanələrini yaşadan yurd yerlərimizə, maddi-mədəni abidələrimizə qarşı apardığı ədalətsiz müharibədə canını qoyan bir soydaşımızın həyat hekayətinin sonuna gəlib çatdıq. Araşdırmalarımızın, xatirə və diləklərin işığında yad etdiyimiz itkin-şəhid Xəqani Eyvaz oğlu Əkbərovun qaranlıq taleyinə nə qədər aydınlıq gətirə bildiksə, bu yolda bizə yardımçı olan hər kəsə təşəkkür borcumuz var. İtkin-şəhidimizin portret cizgilərini nə qədər yaradıb sizlərə təqdim edə, gözləriniz önündə canlandıra bildimsə, buna görəsə daxilimdə bir o qədər də böyük mənəvi rahatlıq hiss edirəm. Uyğun auranı sizlərin də yaşadığı, hiss etdiyi qənaətini bölüşürəm. Ən azı yarım il mənəvi dəstəyinizi, vaxtaşırı müxtəlif reaksiyalarınızı görməyim bunu söyləməyə əsas verir, əziz oxucular!

Xəqani məqsəd-məramımızdan bixəbər olsa da, yazılarımızda sadalanan faktların, mental xüsusiyyətlərimizə işıq tutan fikirlərin qanadında öz yoxluğu ilə yenə doğma xalqının xidmətində dayanmış oldu. Qarabağ savaşı səbəbindən yaşanan bir çox problemlər, ayrı-ayrı döyüşçülərin bəzilərinin haqqında məlumatlar geniş ictimaiyyətə bəlli oldu, bəzilərinin heç yerdə yazılmayan acılı-şirinli xatirələri işıq üzü gördü. Araşdırmalarımız böyük bir həqiqəti də bütün çılpaqlığı ilə ortaya qoydu. Belə ki, əsgərlərimizin guya döyüşməməsi, ancaq torpaqları qoyub qaçmaları kimi yersiz ittihamların əksərən yalan, böhtandan başqa bir şey olmadığını faktların dili ilə sübuta yetirdi, erməni məkrinin, onlara havadarlıq edən "çoyrnaya koşkaların" faş edilməsində əhəmiyyətli rol oynadı. Həm Qarabağ savaşında baş verənlər az-çox analiz edildi, həm də yaddaşlarda, tarixdə qalacaq kitab vasitəsilə gələcək nəsillərimizə "ehtiyatlılıq, xəbərdarlıq" siqnalları göndərildi. Bir sözlə, bu kitab Xəqaninin xalqı, dövləti və doğmalarına hələlik sonuncu mükafatıdır desək, yəqin ki, yanılmayacağıq.



Eyni zamanda mənim də həyat tarixçəmdə kitabın rolu müəyyən izlər buraxdı. Müxtəlif insanlarla təmaslarım oldu. Xəqaninin anası Telli xala başda olmaqla qardaşları, yaxınları, doğmaları, komandiri, döyüş yoldaşları, onu uşaqlıqdan şəxsən tanıyan eloğluları ilə görüşüb söhbətləşdim. Qarabağ savaşının bir çox iştirakçıları, hətta keçmiş əsirlərlə də əlaqə yaratdım. Sonunculardan Xəqanini gördüyünü, tanıdığını deyən olmadı. Xankəndidə onu gördüyünü söyləyən keçmiş əsir, paytaxtın Badamdar qəsəbəsinin sakini olduğu söylənilən Əhmədi də xatırlayıb tanımadılar. Amma axtarışlarım boyu məni narahat edən "Xəqani əgər əsirlikdədirsə, ermənilər onu niyə gizlətsinlər" sualıma onların təxəyyüllərinin hesabına qismən də olsa cavab tapa bildim: "Belə gizlətmə halları yalnız erməni vandallarının Qarabağda yaratdıqları qanunsuz bir rejimdə əsirlərin sayını dünyaya çox göstərməmək kimi məkrli niyyətləri səbəbindən baş verə bilər". Yazılarımız boyu bir neçə əsirin qaçıb canını qurtardığından bəhs edən faktlar bu fikrin həqiqət olduğunu bir daha isbatlayır. Həmçinin, onların sözlərinə görə, əgər Əhməd tapılmış olsaydı, məhz onun dedikləri əsasında, elə onun özünün şahidliyi ilə Qırmızı Xaça müraciət etmək bu axtarışa xeyir verə bilərdi. Çünki Qırmızı Xaç adlı-ünvanlı axtaranda ermənilər həmin əsirləri gizlətməkdə çətinlik çəkirlər. Bu arqumentlərə əsaslanaraq yenə də Əhmədə müraciət edirik ki, o, özünün də taleyinə oxşar bu yazılarımız barədə məlumat ala bilibsə, gec də olsa, müvafiq dövlət qurumlarına və Xəqaninin doğmalarına mümkün yardımlarını əsirgəməsin.

**Şəhidlik - ölümsüzlük iksiri**

...Yollardan başlamışdım. Taleləri birləşdirən, ayıran, kəsişən, keçilməz, dalanlı, dolanbac, işıqlı, qaranlıq yollardan... Yarım ildə apardığım axtarışların boy sırasında bu az müddətdə nə qədər böyük daha bir YOLUN qət edildiyi qənaətinə gəlirəm. Bu yolun kəşfi AZƏRBAYCANÇILIQ dəyərlərini bütün varlığında daşımış Xəqani Əkbərov taleyinin çözülməsi yönündə vaxtaşırı ümidlənib-ümidsizləşən təşvişli anlarımın diqtəsi bahasına mümkün oldu. Təki bizi onun doğmalarına, döyüş yoldaşlarına qovuşduran bu yollar Xəqaninin qəflətən gəlişi, 25 ildir gözləri yollarda yığılmayan Telli ananın, doğmalarının müjdələnməsi ilə tamamlana, Eyvaz kişinin narahat ruhu sevinə, əbədiyyətdə rahatlıq tapa!.. Təki Xəqani tapılsın, qayıtsın, canından artıq sevdiyi Vətəninə qovuşsun, onun dünyamıza şəxsi baxışlarının, eləcə də həyat dramının bizə bəlli olmayan və sonrakı davamına da işıq tutaq, əziz oxucular! Ümidimizi üzmədən, onun doğmaları ilə birgə gözlərimiz yolda, qulağımız səsdə qalsın!..



...Şübhəsiz ki, hər bir insanın həyatında tale yolunun tuşladığı, cızdığı istiqamətlər var. Ancaq görünür, tale yolu da "hər kəsin niyyətinin axarına", "pirin kəramətinə" görə cızılırmış. Gözlər ürəyin aynası olduğu kimi, yollar da ürəyin istəyinin mənzil başındakı dayanacaqlarının məskəni imiş. Əfsuslar olsun ki, yolların qət edilməsi ürəyin istəyindən doğulsa da, həmişə insanı xoşbəxt günlərə, xoş məramlarla əhatələnmiş mənzil başına çatdıra bilmirmiş... yolların "lokomotivliyi" də varmış, vəfasızlığı da...

## *SON SÖZ ƏVƏZİ*



### *Vətənə və Vətəni yaşadanlara borcluyuq*

Hələ otuz bir il öncə tələbə yoldaşım, istedadlı şair-jurnalist İlham Zeynallının yazdığı bir şeir parçasında oxumuşdum:

- Yollar ürəyimdən asılı qalıb…
Yollar ürəyimdən başlayır demə.
Hər gülən görəndə xoşbəxt sanardım -
Çoxu taleyini daşlayır demə…

Taleyin, qədərin daşlamadığı - taleyin, qədərin sevərək qarşıladığı müqəddəs şəhidlik yolunun yolçuluğu da var dünyamızda. Bu hər kəsə nəsib olmur. 20 Yanvar şəhidləri - məhəbbət-sədaqət nümunələri İlhamla Fərizənin məzarları başında Seyid Camal Əzimbəylinin fatihə söylədikdən sonrakı fikirlərini xatırlayıram. Seyid Camal əlini qoşa məzara uzadaraq dedi ki, onların ruhlarını burda - qəbirlərinin içində düşünmək yersizdir. Onlar öz məqamları ilə çoxdan Böyük Yaradanın dərgahındadırlar. Şəhidliksə hər kəsə nəsib ola biləcək bir xoşbəxtlik deyil. Seyid Camal onu da söylədi ki, o, "şəxsən özünə şəhadətliyi arzulasa da, bu onun qismətinə düşməyib. Deməli, şəhidliyi seçmək də olmurmuş, şəhidlər yalnız Allahın seçdiyi bəndələridir".



...Elə buna görə də tarixən fəxarətlə şəhidlərin ölü olmadığını dilə gətirib düşüncə adamlarımız. Şəhidlər vətən, xalq, torpaq, din, əqidə, amal yolunda mübarizliyin, mübarizənin başlanğıcı və tükənməzliyidir gerçəkdə. Onların ölümləri ölümü deyil, qəhrəmanlığı, ölümsüzlüyü yaşatmaq qərarından doğulur İlahinin. Bu qismətsə əbədiyaşar missiya olduğundan, şəhidlərin ölümsüzlüyünü dünya durduqca yaşadır.

**Mübariz oğullarımız sırasında Xəqani səhifəsi**

Mən Az.TV-də hərbi proqramlar və salnamə redaksiyasında çalışarkən "O görünən Ağdamdı" adlı veriliş hazırlamışdım. Verilişin sonunu sözləri mərhum yazarımız Nahid Hacızadəyə, musiqisi bəstəkar Eldar Mənsurova məxsus, təkrarsız səsli müğənni Mübariz Tağıyevin ifasında "Qalx, qalx, ulu bayraq" marş tipli mahnısı ilə bitirmişdim. Verilişi bu ruhda, bu sonluqla ssenariləşdirməyimin səbəbi... bu ideyanı torpaqlarımızda müharibə getdiyi bir dönəmdə mübarizə ruhlu nəğmələrimizi vətənpərvərlik motivli müasir laylalarımıza çevirmək, onların ana laylalarımızı əvəz etməsinə nail olmaqdan ötrü düşünmüşdüm:

- Qalx, qalx ulu bayraq,
Qalx, qalx ulu torpaq,
Qalx, qalx, sən ey mərd xalq
Yer titrəsin məhvərindən.

Bu, Ağdamın işğal tarixindən üç il sonra - 1996-cı ildə baş vermişdi. Yəni sonradan tanıdığım qəhrəmanım Xəqaninin də Ağdamda itkin düşdüyü tarixdən üç il sonra... Düşünmüşdüm ki, qulaqlarda, yaddaşlarda daha çox finalı qalan belə verilişlərlə xalqımızın torpaqlarının müdafiəsinə, işğaldan azad edilməsinə köklənmiş mübarizə ruhunu qoruya bilərik. Fikirlərimdə yanılmadığımı yaxın tariximizdəki "Aprel zəfəri" daha dərindən təsdiqləmiş oldu. Əlbəttə ki, xalq ancaq mərd, mübariz oğlanlarının çiynində ayağa qalxa, Vətənini qoruya, kimliyini dünyaya sübut edə bilər. Xəqani Əkbərov da müqəddəs missiyası ilə tariximizə adını bir vətənpərvər azərbaycanlı kimi yazmış oldu.

**Qəhrəmanlığın rüşeymi ürəklərdə yaşayır...**

Xəqaninin taleyini araşdırmaq, oxumaq geniş düşüncəli, insanlığa, Vətən sevgisinə, ailə münasibətlərinə dəyər verməyi bacaran hər kəsi kədərli notlara qərq edir. Ancaq Xəqaninin həyat hekayətində, kədərlə yanaşı, çox qürurverici anlar da var. Bunları da unutmaq, arxa planda saxlamaq olmaz. Əslində məni bu yazıları qələmə almağa vadar edən həm də bu gəncin vətənpərvərlik hisslərinin qanadında döyüş yolunu şüurlu şəkildə seçməsi, könüllü orduya, od-alovun içinə getməsi, düşmənlə üz-üzə gələndə öz doğmalarını, gözü yolda qalan nişanlısını unudub bütün mümkünlü-mümkünsüz vasitələrlə ölkəmizin qələbəsinin təminatçılarından olmaq istəməsi, Vətən yolunda öldürməkdən-ölməkdən çəkinməməsi kimi parlaq bir nümunəyə çevrilməsidir.

***(Ardı 14-cü səh.)***

*(Əvvəli 13-cü səh.)*

Yüngülvari bir müqayisəyə fikir verin. O zaman ordudan yayınıb dağlarda-dərələrdə gizlənməklə Vətən məhfumunun ucalığına kölgə salanlarla "mən yoldaşlarımı düşmən qabağında buraxıb sakitcə evdə otura bilmərəm" söyləyərək icazə günlərini də gözləməmək…bu, qəhrəmanlıq nümunəsi deyilmi?! Bu, Vətən sevgisinin ən ali mərtəbəsində dayanmaq istəyi, dayanmaq bacarığı deyilmi?! Yaxud qolu yaralı, özü yorğun-yuxusuz, kəşfiyyatdan qayıtdıqdan sonra döyüş yoldaşlarına qoşulub ermənilərin üstünə getməsi, lap elə görmədiyin, bələd olmadığın yerlərdə kəşfiyyatçılığı boynuna götürmək, bütün təkidlərə rəğmən "siz kəşfiyyata getməmisiz, yolu aza bilərsiz" bəhanəsilə döyüş yoldaşlarından ayrılmamaq…bunlar nə boyda bir ürəyə sahib olmağın açıq göstəricisidir. Bilirsiniz, qəhrəmanlıq döyüş anlarında doğulmur, qəhrəmanlıq döyüş anlarında üzə çıxır. Əlbəttə ki, bununçün uyğun şərait, imkan yarananda. Amma qəhrəmanlıq rüşeym halında ürəkdə olur, ürəkdə yaşayır, zəruri məqamlarda o ürəyin sahibinin gerçək kimliyini ortaya qoyub onu tanıdır.

### Vətən bizə borclu deyil...

Bu devizi təəssüf ki, yalnız keçmiş döyüşçü, Xocavənd rayon icra hakimiyyətinin başçısı Eyvaz Hüseynovun şüara çevirdiyinin şahidi olmuşam. Düşmənin bir addımlığında - Nərgiztəpə yüksəkliyində həkk etdirdiyi hərbi-vətənpərvərlik motivli kompozisiyanın üzərində. Kimliyindən asılı olmayaraq, düşmənlə üz-üzə dayanan əsgərlərə baş çəkməyə gələn hər kəsə, beynəlxalq təşkilatların təmsilçilərinə, bütün qonaqlara nümayiş etdirir bu şüarı Eyvaz müəllim. Çox istərdim ki, bu şüar, əlbəttə ki, məzmunundakı bütün təfsilatla bir yerdə küçə və prospektlərimizi, dərsliklərimizi bəzəsin. Fikrimcə, bu ideyanın dərinliyində VƏTƏN anlayışının əsl mahiyyəti öz əksini daha dolğun şəkildə tapır.

...Qoruduğumuz, qoruyub-qoruya bilməyəcəyimiz Vətənə sədaqət hamımızın boyun borcudu. Vətənsə heç birimizə borclu deyil. Vətənin qoynunda şəhidlərimizin qanı bahasına firavan yaşayan, ümumiyyətlə yaşaya bilən soydaşlarımızsa dünya durduqca qəhrəman oğullarımıza - şəhidlərimizə, qazilərimizə borcludurlar. Əlbəttə ki, təkcə pafoslu, bəlağətli sözlərlə yox, onlara, onların yadigarlarına ən yüksək səviyyədə ehtiram, yeri gələndə maddi-mənəvi dəstək göstərməklə. Sözlərimi yalnız maddiyyat anlamında düşünüb əməl etməkdən vaz keçənlərə də səslənirəm: bu addımlarınız təkcə bir şəhidə, bir evə, bir ailəyə hörmət göstərməyinizlə bitməyəcək. Burada daha irimiqyaslı strateji hədəfləri düşünmək gərəkdir. O isə bütün xalqların tarix boyu ehtiyac hiss edib, üzərində qurduqları vətənpərvərlik hisslərinin təbliğatından ötrü ən önəmli addımlardır:

*- Heç bir mükafatın yetmədi mənə,*
*Bircə "sağolun" da bəsimdi, Vətən!*
*Bəsimdi, hər səhər salam yerinə*
*Bir səmum küləyin əsibdi, Vətən!*

*Qol verdin boynunu qucaqlamağa,*
*Göyünə baxmağa göz verdin, bəsim,*
*Kürək söykəyənin ana torpağa*
*Haqqı yox bir özgə təltif istəsin.*

**(Məmməd Araz)**

...Vətən nəhəng bir dünyadı, biz onun bütövlüyünün təminatçısı olan zərrəciklər. Vətən yurd yerlərimizdi. Vətən babalarımızın uyuduğu müqəddəs torpaqdı. Vətən, əvvəldə də qeyd etdiyim kimi, qeyrətli babalarımızın bizə əmanətidi:

*- Şimşəklər çinartək sancılıb yerə,*
*Düşmənin gözünə dirsəkdi hər dağ.*
*Babalar atını sürüb gedibdi,*
*Qalalar boylanıb qalıbdı ancaq.*

**(Sabir Rüstəmxanlı)**

Vətən - tariximizi qoynunda yaşadan maddi-mədəniyyət abidələrimizin - daş kitabələrimizin məskənidi. Vətən - torpağın dərin qatlarına gedən rişələnmiş köklü, qol-budaqlı ağacdı. Bu ağacın qol-budağında da, onu üzərində saxlayan torpağında da bizim yerimiz, bizim nəfəsimiz var. Əlbəttə ki, tariximizə, qürurverici salnamələrimizə, qəhrəmanlarımıza, şəhidlərimizə, qazilərimizə, ictimai-siyasi xadimlərimizə, elm, sənət fədailərimizə, bir sözlə, milli kimliyimizi qoruyub daha da yüksəklərə qaldıran hər kəsə borclu olduğumuzu anlayıb onu qoruya biləndə...

*- Vətən bir budaqdır, yaşıl bir budaq,*
*Ümiddən asılan yarpağıq biz də.*
*Ayağımız altda yeriyir torpaq,*
*Yeriyən, düşünən torpağıq biz də.*

**(Nüsrət Kəsəmənli)**

Xalq yazıçısı Anarın ssenarişdirdiyi, qədim tariximizin böyük bir parçasının ədəbi-bədii ifadəsi "Dədə Qorqud" filmində Turalın anasını - atasının namusunu düşməndən qorumaq üçün seçdiyi ölüm yolunu görmüsünüz. Sonradan düşmən caynağından xilas olmağına görə buna Allahın sınağı da demək olardı. Xəqani də Ana Vətənini qorumaqdan ötrü seçdi bu yolu. Vətən oğullarını Turalın harayına gətirən Allah bəlkə Xəqaniyə də belə bir yol saxlayıb, bəlkə də yox, bunu biz dəqiq söyləyə bilmərik... Bəlkə Xəqaninin bu dünyamızdakı həyat yolu elə Vətənin yaşaması naminə burdaca qırılıb?! Bəlkə onun müqəddəs şəhid ruhu zühur edərək "Aprel döyüşünün" qəhrəmanlarının yardımçısı, "kəşfiyyatçısı" olub?!.. Bəlkə də Xəqani sağ-salamat məkrli Qarabağ düyününün açılacağı günün təşnəsilə onu Gərayбəyliyə - Telli xalanın hüzuruna gətirəcək yolun həsrətilə yaşayır, dözür?!..onu Əkbərovlar ocağında üzlərini görmədiyi, yaşlarını bilmədiyi nə qədər nəvə-nəticələrin gözlədiyindən bixəbər…

Xəqani düyünündə cavabını gözləyən suallar çoxdu. Hansı suala cavab tapa biləcəyimizsə zamanın axarında qalır. İtkin-şəhidimizin doğmalarına, eləcə də bu taledən dolayı nigaran qalan hər bir azərbaycanlıya səbr diləməklə yazıları yekunlaşdırıram. Qarşılıqlı təskinliyimiz…təki Vətən sağ olsun!



***Nəzirməmməd ZÖHRABLI***

**"Formula-1" şirkətinin rəsmi saytında builki Azərbaycan Qran Prisinin favoritləri haqqında geniş məqalə yazılıb. Həmin məqalənin tərcüməsini Sizə təqdim edirik:**

# Builki Azərbaycan Qran Prisinin favoritləri ...poulu kim qazanacaq...



Bu həftə "Formula-1" yüksək sürətli şəhər treki olan Bakı Şəhər Halqasına qayıdır. İndiyədək burada keçirilmiş üç yarış Formula 1 tarixində proqnozlaşdırılması çətin və ən xaotik yarışlardan olub. Buna baxmayaraq biz yenə də builki yarışın nəticələrinə dair bəzi təxminlər edə bilərik...

### Bu il poulu kim qazana bilər?

İndiyədək Bakıda 3 dəfə poul qazanılıb və hər dəfəsində buna fərqli pilot yiyələnib. İlk yarışda - 2016-cı ildə Niko Rozberq, 2017-ci ildə Luis Hamilton və 2018-ci ildə Sebastian Fettel sıralanma turunda ən sürətli nəticə göstərərək yarışa ən öndə start verib.

Bu il Hamilton və ya Fettel buna yiyələnsə bizim üçün sürpriz olmayacaq. Bu arada onu qeyd edim ki, Fettel Bakıda indiyədək keçirilmiş hər üç Qran Pridə qriddə yarışa ilk dördlükdən başlamış yeganə pilotdur. Digər tərəfdən, Honda bu həftə Bakıya daxili yanma mühərrikində bəzi dəyişikliklərlə gəlir və bu da Maks Ferstappenin ilk poul arzusuna çatmasına köməklik göstərəcək.

Mercedesin digər pilotu Valteri Bottas cari mövsümün ən sonuncu yarışı olan Çin Qran Prisində poula yiyələndi və bu baxımdan Bakıya yüksək əhval-ruhiyyədə gəlir. Valteri Bottas Mercedes komandasının sürücüsü kimi Bakıda mübarizə apardığı hər iki Qran Pridə yarışa ilk 3-də start verib. Finlandiyalı sürücü bu həftə karyerasının 2-ci poulunu əldə edə biləcəkmi?

### Qələbə üçün kimin şansı çoxdur?

Bakıda üç yarış və hər yarışda da fərqli qalib... və onlardan sadəcə biri bu bazar keçiriləcək yarışın favoritlərindən sayılır. Qaliblərdən Rozberq 2016-cı ildə Avropa Qran Prisində qələbə qazandıqdan sonra həmin mövsümün sonunda karyerasına son verdi. Buna görə onu bu siyahıdan çıxarda bilərik. 2017-ci ildəki Azərbaycan Qran Prisinin qalibi Daniel Rikkardo yarışa 10-cu yerdə başlamışdı və hazırda Renault komandasında bunu təkrarlaması imkansız görünür. Ötən ilki yarışın qalibi Luis Hamilton ondan əvvəlki iki yarışda 5-ci yerdən daha yaxşı nəticədə yarışı başa vura bilməmişdi.

Bizim tövsiyəmiz odur ki, bu həftəsonu Valteri Bottas və Şarl Lekleri xüsusi diqqətlə izləyin. Lekler Bakıda yaxşı forumdadır. Xatırlayın, 2017-ci ildəki "Formula-2" yarışından bir neçə gün əvvəl atasının ölümündən verdiyi dərin hüznə baxmayaraq qələbə qazanmışdı. Ötən ilki Azərbaycan Qran Prisində isə o, "Formula-1"dəki ilk çıxışında Sauber pilotu olaraq yarışı 6-cı yerdə başa vurmuşdu. Ferrarinin düzlüklərdəki yüksək sürəti və döngələrdəki inkişaf etmiş performansı Lekleri bu həftənin favoritlərindən biri edir.

Hamiltonun ötən il Bakıda keçirilən Qran Pridə yarışın sonlarına doğru Bottasın yaşadığı təkərin deşilməsi problemindən sonra qələbəyə yiyələnə bilmişdi. Keçən ilki yarışı Bottas 1-ci yerdə bitirsəydi, həmin mövsümün ilk qələbəsinə yiyələnəcəkdi. Deməli bu il Bottas Bakıya daha böyük qələbə arzusu ilə gəlir.

Red Bulla gəlincə, ötən il bu komandanın pilotları Daniel Rikkardo və Maks Ferstappen ən uzun sürətlənmə düzlüyünün sonunda döngəyə yaxınlaşarkən toqquşdular və hər ikisi yarışı başa vura bilmədi. Bu hadisədə komanda hər iki pilotu oxşar dərəcədə günahkar saydı. Bu həftə Bakıda baş tutacaq "Formula-1" yarışı Red Bullun bu mövsümdə indiyədək qələbə qazana bilmək şansı ən yüksək olan Qran Pri yarışıdır.

### Podiuma ən yaxın kimdir?

Serxiyo Perez. Əslində o, podiumdan çox az kənarda qalır. Bakıda indiyədək keçirilmiş 3 yarışda meksikalı pilot iki dəfə (2016 və 2018) podiuma çıxıb və bu göstərici ilə o, Bakıdakı yarışlarda ən çox podium qazanmış "Formula-1" pilotudur. Perezin Racing Pointdəki yeni komanda yoldaşı Lens Strol da 2017-ci ildə Bakıda podiuma çıxa bilib. Onlar komandada bir-biri ilə çox yaxşı anlaşırlar və bu onların 2019-cu ildə podium naminə əməkdaşlığına uğurlu təsir göstərəcək.

Digər komandalar da əlbəttə həvəsləndirilməlidirlər. Ona görə ki, Bakıda keçirilmiş ilk yarış - 2016 "Formula-1" Avropa Qran Pirisindən bu yana baş tutmuş 58 yarışın sadəcə üçündə Ferrari, Red Bull və Mercedes xaricindəki komandaların pilotları podiuma çıxa bilib və məhz bunlar da sırf Bakıda reallaşıb.

Bundan daha maraqlısı odur ki, indiyədək podiuma çıxmış 9 pilotdan beşi yarışa ilk 5-likdən arxada start verib. Builki dəyişikliklərin DRS-ə olan güclü təsiri pilotlara Neftçilər prospektindəki 2,2 km-lik sürətlənmə düzlüyündən daha yaxşı yararlanmağa köməklik göstərəcək. Nəticədə builki Azərbaycan Qran Prisi orta səviyyədə olan komandalar üçün də podiuma çıxmaq imkanı yaradır.

Bu arada onu qeyd edim ki, Bakı Şəhər Halqası son iki mövsüm ərzində ötmələr baxımından "Formula-1" təqvimində yer alan treklər arasında ən yüksək göstəriciyə sahibdir. Bu göstərici 2017-ci ildə 42 və 2018-ci ildə 50 təşkil edib. 2016-cı ildəki ilk yarışda mövsümün ən çox ötmələrə şahidlik etdiyi trek olmasa da 62 ötmə ilə həmin mövsümün qabaqcıllarından olub.

### Kimlər yarışdan xal qopara biləcək?

Adətən bu məqamda Niko Hulkenberq yada düşür, lakin bu dəfə istisna təşkil edə bilər. Azərbaycandakı son iki yarışda almaniyalı pilot bolidini iki dəfə divara vurub. Hər dəfəsində də bu, onun yarışı 5-ci sırada başa vurması ilə nəticələnib. Bu baxımdan Nikodan yana mərcə girməyə dəyər.

Nikonun komanda yoldaşı Daniel Rikkardo Bakıda ötən il keçirilmiş Qran Prinin qalibidir və o, həmin mövsüm ərzində xeyli xal yığa bilmişdi. Bundan başqa, Karlos Saynzın da bu həftəsonu xal qazanmaq şansı var. İspaniyalı pilot son iki mövsümdə yarışı ilk 10-luqda başa vura bilib. Onu qeyd edim ki, McLarenin bolidi Bakının uzun sürətlənmə düzlüyündə yaxşı nəticə əldə edə biləcək səviyyədədir.

Haasa gəldikdə isə, bu komandanın texniki heyəti Azərbaycan Qran Prisinin onlar üçün çətin keçəcəyi qənaətindədir. Onlar üçün əsas məsələ hər iki pilotun - Roman Qrojan və Kevin Maqnussenin bolidlərindəki təkər problemlərini tezliklə aradan qaldırmaqdır. Bu baxımdan bazar günü onlar üçün gərgin və uzun keçəcək.

# Neftlə çirklənmiş əraziləri tam təmizləmək niyə mümkün olmur...

**Bəşəriyyətin inkişafının bütün dövrlərində ətraf mühit həmişə özünə qayğı tələb edir. Azərbaycanın Abşeron yarımadası 200 ilə yaxın tarixi olan neftçıxarma rayonudur. Mütərəqqi neftçıxarma texnologiyasının olmaması, ətraf mühitin mühafizəsinin ən sadə tələblərinə belə riayət edilməməsi yarımadada çoxlu neft və neft məhsulları ilə çirklənmiş torpaq sahələrinin yaranmasına səbəb olub.**

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi - Mirsalam Qənbərov:*** *”Neftlə çirklənmiş ərazilərin bərpası istiqamətində müəyyən işlər görülür, ancaq hələ istədiyimiz səviyyədə hədəfə çatmamışıq”*

***Telman Zeynalov:*** *”Neftli torpaqların təmizlənməsi prosesi o qədər də qənaətbəxş deyil”*

Neft yataqlarının istismarı zamanı torpaqların münbit qatı dağıntıya məruz qalıb və bunun nəticəsində münbit məhsuldar torpaq sahələri bitki örtüyündən məhrum olub. Bu torpaqlar neftli tullantılarla həm eninə, həm də dərinliyə doğru müxtəlif dərəcədə çirkləniblər.

Qeyd edək ki, elm və texnikanın inkişafı isə ekosistemə çox mənfi təsir göstərir. Məlumat üçün bildirək ki, Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair Prezident İlham Əliyev tərəfindən kompleks tədbirlər planı təsdiqlənib. Bu plan Bakı və Abşeron yarımadasında neftlə çirklənmiş torpaqların təmizlənməsinə yönələn tədbirləri də nəzərdə tutur.

Neftlə çirklənmiş ərazilər təkcə Azərbaycanda deyil, Avropada, Orta Asiyada, ərəb ölkələrində var. Xarici ölkələrdə neftlə çirklənmiş ərazilərin təmizlənməsi istiqamətində müəyyən işlər görülür. Maraqlıdır, Azərbaycanda neftlə çirklənmiş ərazilərin təmizlənməsi istiqamətində vəziyyət necədir? Məsələ ilə bağlı

Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət etdik.

**Nazirliyin şöbə müdiri Mirsalam Qənbərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Abşeron yarımadasında uzun illərdir sənaye üsulü ilə neft çıxarılır:** "Neft hasilatında, emalında, istər-istəməz, neft qalıqları, məhsulları formalaşır və onlar düzgün idarə olunmursa, ətraf əraziləri çirklənməyə məruz qoyur. Bu amil bizdə də olub. Bu gün də bəzi sahələrdə problemlər var. Ona görə də Abşeron yarımadasında kifayət qədər neft və neft məhsulları ilə çirklənmiş ərazilər qalıb. Əsasən Suraxanı, Balaxanı, Binəqədi, Bahar enerji, az miqdarda Bibiheybət Əmirov adına, Nəriman Nərimanov adına neft-qazçıxarma idarələrinə məxsus mədən əraziləridir".

M.Qənbərov onu da vurğuladı ki, neftlə çirklənmiş ərazilərin bərpası istiqamətində müəyyən işlər görülür: "Bu sahə ilə əsasən Ekologiya və Təbii Sərvətlər Nazirliyi məşğul olur. Ancaq hesab edirəm ki, həyata keçirilən işlər müəyyən qədər səmərəsiz olub. İstədiyimiz səviyyədə hədəfə çatmamışıq. Neft-qazçıxarma idarələrində köhnə texnologiyalardan istifadəetmə prinsipi bu məsələnin tam aradan qaldırılmamasına səbəb olub. Köhnə texnologiyaların hələ də istifadə olunması bu sahədə yaşanan problemlərin hələ də bitməməsinə səbəbdir. Mütərəqqi addımlar olarsa, neftlə çirklənmiş ərazilər qısa müddətdə bərpa olunar".



Həmsöhbətimiz qeyd etdi ki, neftlə çirklənmiş ərazilərin təmizlənməsi istiqamətində indiyə qədər müəyyən işlər görülüb: "2018-ci ildə Suraxanı rayonunda neft şirkəti tərəfindən 18-19 mənbədən neftlə çirklənmiş şlamlar idarə olunan məntəqələrə yerləşdirilib. Beləliklə, neftlə çirklənmiş müəyyən ərazilər bərpa olundu".

Neft məhsulları ilə çirklənmiş ərazilərdə yaşayış evlərinin olmasına gəlincə, həmsöhbətimiz bildirdi ki, bütün inkişaf etmiş ölkələrdə sənaye zonaları mövcuddur. Sənaye zonalarında hər hansı bir infrastrukturun, yaşayış sahələrinin salınması düzgün deyil: "Nəzərə almaq lazımdır ki, həmin ərazidə müəyyən dərəcədə zərərli maddələr formalaşır. Eyni zamanda, tullantılar yaranır. Neftlə çirklənmiş ərazilərdə yaşayış evlərinin olması o ərazidə yaşayan sakinlərin səhhətinə zərərdir. Həmin ərazilərdə yaşayış məskənlərinin olması həm təhlükəsizlik, həm də ekoloji baxımdan qəbuledilən deyil.Təəssüf ki, bu gün mədən ərazilərdə evlər hələ də tikilməkdə davam edir".

**Ekoloq Telman Zeynalov bizimlə söhbətində qeyd etdi ki, neft olan ərazilər radiaktiv hesab edilir.** Həmin torpaqlarda radiasiya olur, ancaq orada yaşayan insanların orqanizmi buna öyrənir. Elə ərazilər var ki, orada neft uzun illərdir çıxarılır. Hətta 200 il neft çıxarılan ərazilər var. Suraxanı və Sabunçuda 160 ildən çoxdur neft çıxarılır. Bu amil, eyni zamanda, hazırda neft hasilatı və emalı müəssisələrinin bu ərazilərdə cəmlənməsi adıçəkilən rayonların ərazilərinin neftlə daha çox çirklənməsinə səbəb olub.

Onun sözlərinə görə, neftli torpaqların təmizlənməsi prosesi o qədər də qənaətbəxş deyil: "Bütün ölkələrdə neftli torpaqların təmizlənməsinin 100-ə yaxın texnoloji qaydası var. Tərkibində daha az neft olan torpaqların təmizlənməsi üçün azot gübrəsindən istifadə olunur. Ancaq torpağın tərkibindəki neft 4-5 metrdən daha çox nüfuz edibsə, bu zaman başqa texnologiyalardan istifadə etmək lazımdır. Bunun üçün də bizdə yetərli qədər imkan var.

Ancaq Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən təmizlənmiş torpaqlarda əkilən ağacların müəyyən müddətdən sonra yerindən çıxarılıb yeniləri ilə əvəzləndiyini müşahidə edirik. Bu isə o deməkdir ki, bu sahədə görülən işlər öz faydasını verməyib".

Həmsöhbətimiz onu da vurğuladı ki, neftdən təmizlənmiş torpaqlarda yaşayış obyektlərinin tikilməsi doğru deyil: "Çünki həmin ərazilər radon qazı və digər zəhərli komponentlərlə zəngindir. Bütün bunlar həmin binalarda yaşayan insanların sağlamlıqlarına ciddi təhlükə mənbəyidir. Ona görə də təmizlənmiş ərazilərdə torpaqların münbitliyinin təmin olunması, eləcə də atmosferin və suyun təmizlənməsi üçün bir sıra profilaktik tədbirlər həyata keçirilməlidir. Məsələn, yaşıllıq salınmalıdır ki, müəyyən müddətdən sonra torpaq, su və hava təmizlənmə prosesini təmin edə bilsin".

***Günel CƏLİLOVA***

# Bakı Şəhər Fəvvarələrinin İstismarı İdarəsi

## AÇIQ TENDER ELAN EDİR

Lot-1. Mal-materialların satınalınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, yuxarıda göstərilən Lot üzrə tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcək: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin yerinə yetirilməsi təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər Lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, S.Əsgərova 105 ünvanından (Əlaqələndirici şəxs: Məmmədov Qəhrəman Fərman oğlu, 597-03-82) ala bilərlər.

Lot-1 - 200 (iki yüz) manat

Təşkilat: Bakı Şəhər Fəvvarələrinin İstismarı İdarəsi.

VÖEN: 1700216081

Hesab: AZ54BBTB38060944003204000104

Bank: "BTB" ASC-nin "Ticarət" filialı

VÖEN: 1302164881

Kodu: 501413

Müxbir hesabı:

AZ13NABZ01350100000000003944

SWIFT: BBTBAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında arayış;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcək. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 24 may 2019-cu il saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 27 may 2019-cu il saat 17:00-dək Bakı Şəhər Fəvvarələrinin İstismarı İdarəsinə (Bakı şəhəri, Nəsimi rayonu, S.Əsgərova 105 ünvanına) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaq. İddiaçıların təklifləri 29 may 2019-cu il tarixdə saat 17:00-da yuxarıda göstərilən ünvanda açılacaq. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender Komissiyası***

№ 75 (3973) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

26 APREL 2019-cu il

www.baki-xeber.com

## "Nar" "ADA Innovation Awards 2019" mükafatına dəstək verir

**Ölkədə təhsil və maariflənmənin inkişafına xüsusi önəm verən "Nar" ADA Universitetində təşkil edilən "ADA Innovation Awards 2019" mükafatının keçirilməsinə növbəti dəfə dəstək olub.**

İdeyanın əsas məqsədi tələbələrə innovativ ideyalarını irəli sürməklə öz startapını başlamaq və real biznes qurmasına şərait yaratmaqdır. Müsabiqənin yekun mükafatlandırma mərasimi mayın 24-də baş tutacaq. Qalib layihələrin müəllifləri müxtəlif pul mükafatları ilə təltif edilməklə yanaşı, 2018-2019-cu tədris ilində "ADA İnnovasiya Mərkəzinin sakinləri" titulunu alacaqlar. Qeyd edək ki, dörd il əvvəl ADA Universitetinin rektoru Hafiz Paşayevin şəxsi təşəbbüsü ilə təsis edilən ADA İnnovasiya Mərkəzi tələbələr arasında innovativ düşüncə tərzi və sahibkarlıq ruhunu artırmaq məqsədilə yaradılıb.

"Nar" və ADA Universiteti arasında əməkdaşlıq çərçivəsində nəzərdə tutulmuş layihələr arasında ADA Universiteti Fondu ilə əməkdaşlıq, ADA-nın tələbə və məzunları üçün karyera və staj imkanlarının təklif edilməsi, universitetin ixtisasartırma proqramlarına "Nar" operatoru əməkdaşlarının cəlb edilməsi kimi tədbirlər də mövcuddur.

"Nar"ın KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib."Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

## "Bakcell" "Formula-1" SOCAR Azərbaycan Qran Prisi 2019 yarışına hazırdır

*Azərbaycanın ən sürətli mobil şəbəkəsi "Formula-1" təqviminin ən sürətli şəhər trekində ən sürətli mobil internet xidmətlərini təqdim edir*

**Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkəti "Formula-1" SOCAR Azərbaycan Qran Prisi 2019yarışı ilə əlaqədar olaraq xüsusi hazırlıq işləri görüb.**

Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) ilə "Bakcell" şirkəti arasında Azərbaycan Qran Prisinə dəstəyin göstərilməsinə dair üçillik sponsorluq müqaviləsinə əsasən Bakcell şirkəti Bakıda baş tutacaq növbəti 3 yarışa dəstək göstərəcək. Belə ki, müqavilə çərçivəsində Bulvar tribunasına "Bakcell" şirkətinin adı verilib və bu tribuna şirkətin korporativ vizual elementləri ilə rənglənib. Bundan başqa, bulvar ərasizində yerləşən "Formula-1"in azarkeşlər zonasında "Bakcell" tərəfindən yarış tamaşaçıları üçün əyləncəli tədbirlər təşkil edilib. Həmçinin şirkət yarış müddətində trek ətrafında yerləşən ictimai məkanlarda öz məhsullarını Azərbaycan Qran Prisinin tamaşaçılarına təqdim edəcək. Bundan əlavə, "Bakcell" özünün sosial media səhifələrində abunəçilər üçün xüsusi müsabiqələr keçirib və qaliblərə "Formula-1" yarışına və bu yarış çərçivəsində keçirilən əyləncə tədbirlərinə 150-dən çox bilet hədiyyə edib. Yarış həftəsonu ərzində mobil rabitə xidmətlərinə artan tələbatı nəzərə alaraq "Formula-1" SOCAR Azərbaycan Qran Prisi 2019 yarışınınilk rəsmi dəstəkçisi olan "Bakcell" şirkəti Bakının mərkəzində, xüsusilə yarışların keçiriləcəyi ərazilərdə 2G, 3G və 4G şəbəkələrinin tutumunu maksimal dərəcədə optimallaşdırıb. Bakı və Abşeron ərazisində saniyədə 225 meqabitə qədər mobil internet sürətini təmin edən və ən müasir texnoloji tələblərə cavab verən LTE-A şəbəkəsi tam hazırlıq vəziyyətə gətirilib, yarış zamanı mobil xidmətlərin istifadəsində (səs və məlumat ötürülməsi) yaranacaq iri həcmli trafiktələbləriniqarşılamaq üçün isə dənizkənarı bulvar ərazisində 7 ədəd müasir mobil baza stansiyası quraşdırılıb. Bundan əlavə, xüsusi təyin edilmiş personal tərəfindən yarış ərazisində 24 saat ərzində şəbəkəyə və digər texniki məsələlərə nəzarət aparılacaq. Həmçinin, "Bakcell" Məlumat Mərkəzi də 24 saat ərzində gücləndirilmişiş rejimində fəaliyyət göstərərək xaricdən gələn qonaqların və ölkə vətəndaşlarının mobil rabitəyə aid suallarını cavablandıracaq.

## "Azercell"in dəstək olduğu "İdeyadan Biznesə" layihəsi çərçivəsində Tovuz və Bakıda startap turları keçirilib

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, "Azercell Telekom" MMC və "Microsoft" şirkətinin birgə təşkilatçılığı ilə "İdeyadan Biznesə" layihəsi çərçivəsində startap turları davam edir.**

Startap hərəkatının genişləndirilməsinə, vətəndaşların innovativ ideyalarının reallaşdırılmasına dəstək məqsədilə keçirilən startap turu bu dəfə Tovuz rayonunda baş tutub. Tovuzda ilk dəfə olaraq keçirilən startap tədbirinə Tovuzla yanaşı, Qazax, Şəmkir, Goranboy, Tərtər, Gədəbəy, Yevlax və digər ətraf rayonlardan olan 100-dən çox gənc qatılıb.

Tədbirin informativ hissəsində iştirakçılar "İdeyadan Biznesə" layihəsinin konsepsiyası, məqsəd və hədəfləri barədə məlumatlandırılıblar. Daha sonra layihədə iştirak etmək üçün müraciət edən komandalar arasında müsabiqə keçirilib və qaliblər müəyyənləşib. Birinci yerin sahibi "Share my goal" layihəsi olub, ikinciliyə "Bacarıqlı əllər"  ideyası, üçüncülüyə isə "Görən gözlər" layihəsi layiq görülüb.

Layihə çərçivəsində Tovuzdan sonra Bakı şəhərində yerləşən ali təhsil müəssisələrini əhatə edən startap müsabiqəsi keçirilib. ADA Universitetində baş tutan startap marafonunda 10-dək ali məktəbin komandası öz layihəsini münsiflər heyəti qarşısında təqdim edib. Müsabiqədə Bakı Dövlət, Azərbaycan Texniki, Azərbaycan Memarlıq və İnşaat, Azərbaycan Dövlət Neft və Sənaye, Bakı Mühəndislik, ADA, Azərbaycan Tibb və Qərbi Kaspi universitetlərinin, Bakı Ali Neft Məktəbinin tələbələri iştirak ediblər. 3 gün ərzində 50-dək layihənin münsiflər heyəti qarşısında təqdimatı keçirilib. Bakı üzrə "NanoDesal", "AntiAge şirəsi", "HealWith", "Bumeranq", "AgroShare", "Plan to plant", "Game of war and modern technologies", "Palliativ qayğı" və "Buqələmun" layihələri finalçılar qismində seçilib.

Qeyd edək ki, layihələr münsiflər heyəti tərəfindən ideyanın unikallığı, bazar potensialı, investisiyanın mənfəət müddəti, ilkin xidmətin/prototipin hazırlanmasına tələb olunan müddət, komandanın ideyanı gerçəkləşdirmə qabiliyyəti kimi meyarlar üzrə qiymətləndiriləcək və yaxın günlərdə 3 əsas yerin qalibi ictimaiyyətə açıqlanacaq.

Bu mərhələdə qələbə qazanan komandalar cari ilin avqust ayının sonlarında 12 regionun da  qalibləri ilə birgə "İnnocamp" yay düşərgəsində iştirak etmək imkanı əldə edəcəklər. Oktyabrda keçiriləcək ümumrespublika finalında isə 1, 2 və 3-cü yerlərin qalibləri müəyyən olunacaq. Qalib gələcək ilk üç yerin sahiblərinə təşkilatçılar tərəfindən mükafatlar təqdim olunacaq, ideyalarını biznesə çevirmək üçün maliyyə dəstəyi göstəriləcək. Finalçılar və hər region üzrə I yerin qalibləri isə dekabr ayında keçiriləcək "Bakutel-2019" 25-ci Yubiley Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisində öz layihələrini iştirakçılara və eyni zamanda, investorlara təqdim etmək şansı qazanacaqlar.

Qeyd edək ki, ötən il 8 regionda, 16 ali təhsil, 3 ümumtəhsil müəssisəsində startap turları keçirilib. Startap marafonuna 7 ay ərzində respublikanın ayrı-ayrı şəhər və rayonlarından 2 mindən çox iştirakçı qatılıb.

Vurğulamaq istərdik ki, Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi tərəfindən komandalara mentorluq dəstəyi göstərilib. "Azercell" və "PAŞA Bank"ın dəstəyilə Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi bir çox layihələrin və startapların müstəqil şirkətlərə çevrilməsinə yardım edib. Ölkənin ilk biznes inkubatoru olan mərkəz sahibkarlıq və informasiya texnologiyaları mövzularında bir çox təlimlərin, seminarların keçirilməsinə təşəbbüs göstərib, bir sıra tədbirlərə evsahibliyi edib.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Hisslər və hissiyat günüdür. İntuisiyanızı işə salın, yaşamınızdakı qəfil dəyişiklikləri anlamağa çalışın. Bu yeniliklərin perspektivdə işlərə təsir miqyasını dəyərləndirməyə cəhd göstərin.



**Buğa** - Nəticənin bütünlüklə sizdən asılı olduğu gündür. Cari işlərlə məşğul olun, böyük planlar qurmayın. Rutin proseslər sizi usandırsa belə, kəmhövsələlik etməyin. Tənbəlliyə və ətalətə, süstlüyə və apatiyaya qapılmayın.



**Əkizlər** - Perspektivləri müəyyənləşdirin, addımlarınızı tərəfdaş və ya şəriklə razılaşdırın. İmkanlar genişlənir. Lakin indi gördüyünüz və ya sizə təklif olunan işi bəyənməsəniz də, daha çox xaosun yaranmasının səbəbkarı olmayın.



**Xərçəng** - Günün ilk yarısında təcili işləri müəyyənləşdirin, ilk növbədə onlarla məşğul olun. Mühüm nüansların diqqətdən yayınmasına imkan verməyin. Təmkinli, soyuqqanlı olun, emosiyalara qapılmayın.



**Şir** - Əla formadasınız və hadisələrin ritmindən, intensivlik və sayından bəhrələnə bilərsiniz. Hər şey sürətlə dəyişir, yaxın ətrafınızdakı insanlar təmaslara hazırdır. Emosiya və dəyərləndirmələrinizdə sayıq olun.



**Qız** - Gələcək günlərin bünövrəsinin qoyulduğu vaxtdır. Yeni işlərə mənəvi və fiziki baxımdan hazırlaşın. Sizdə razılıq hissi yaradan işlərdə çalışın, amma tapşırıq və göstərişləri də unutmayın.



**Tərəzi** - Çətin gündür. Gözləntiləriniz miqyaslı olmasın. Təşəbbüs və ideyanız tərəfdaş, iş yoldaşı və ya şərikiniz tərəfindən qəbul olunmur. İstənilən işdə yalnız öz qüvvənizə və imkanlarınıza bel bağlayın.



**Əqrəb** - Başqalarının səhvlərini yaxşı görürsünüz, amma öz yanlışlıqlarınızı da sezməyə, anlamağa çalışın. Sizinlə yeni ritmdə çalışmaq istəməyən insana qarşı iddialarla çıxış etməyin.



**Oxatan** - Hadisələrin ildırım sürətilə yaşanacağı gündür. Baş verənləri anlayırsınız, amma bir sıra məqamlar sizi gərginlikdə saxlayır. Hətta, yeni mərhələyə hesablanmış planlar belə, çətinliklərlə qarşılaşa bilər.



**Oğlaq** - Yaxın bildiyiniz insanlar üçün gördüyünüz işlər uğurla başa çatacaq. Xüsusi diqqət və məsuliyyət tələb edən sahələrdə sayıq olun, səhvlərə yol verməməyə çalışın. Sözləriniz və işləriniz estetik komponentli olsun.



**Dolça** - Asan, kommunikasiyalar yaratmağın əlverişli olduğu bir gündür. Yaxın ətrafınızdakı insanlarla ünsiyyət qurmaq çətin olmayacaq. Lakin həmsöhbətinizin emosional durumunun incəliklərinə və təfərrüatlarına fikir verin.



**Balıqlar** - Maliyyə məsələlərindəki anlaşılmazlıq və qeyri-müəyyənlik indi sizi ciddi narahat edir. Şəxsi məsələlərdə soyuq məntiqli bu günü unudun, ürəyinizin hökmünə qulaq asın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

### Elan

İsayeva Sevinc Fərrux qızının adına, yeni qaydalarla AZ 1102 Bakı şəhəri, Nəsimi rayonu, 81,M9, m7, 20 Yanvar küçəsi, ev 15 c, mənzil 63 ünvanının qeydiyyat vəsiqəsi (çıxarış) və digər sənədlər itdiyi üçün etibarsız sayılır.

Şirinova Gülayə İsrafil qızının adına, Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, B/2000-198 saylı sahənin bir hissəsində yerləşən torpağın №003013014158 AA №032866 plan-ölçü, çıxarış və Suraxanı rayonu, Əmircan qəsəbəsi, Nizami küçəsi, ev 1 ünvanının reyestr № 006011004435-1031 çıxarışı itdiyi etibarsız sayılır.

Ağazadə Aydın Rauf oğluna Bakı Texniki Kolleci tərəfindən verilmiş tələbə bileti itdiyi üçün  etibarsız sayılır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.